HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV


# Vergilər

№ 48 (942) ■ 19 dekabr 2018 | www.vergiler.az | Qiyməti: 60 qəp.


# Prezident İlham Əliyev hərbçilərə yeni mənzillərin verilməsi mərasimində iştirak edib

Dekabrın 17-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Sabunçu rayonunda hərbçilərə yeni mənzillərin verilməsi mərasimində iştirak edib.



Bildirilib ki, binalardan hərbi qulluqçular üçün ümumi sahəsi 37 min kvadratmetrdən çox olan 394 mənzil ayrılıb. Onların 3-ü birotaqlı, 192-si ikiotaqlı, 185-i üçotaqlı, 14-ü isə dördotaqlıdır. Daimi su, qaz, elektrik enerjisi ilə təmin olunan mənzillərə telefon və internet xətti də çəkilib. İstilik və isti su təchizatını təmin etmək məqsədilə hər bir mənzil kombi sistemi ilə təchiz olunub.

Sonra Prezident, Ali Baş Komandan İlham Əliyev hərbçilər və onların ailə üzvləri ilə görüşüb. Mərasimdə nitq söyləyən Prezident bildirib ki, bu günə qədər dövlət tərəfindən 1279 hərbçi ailəsinə mənzillər verilib. Azərbaycan nadir ölkələrdəndir ki, belə proqram icra edilir. Bu, bir daha dövlətimizin hərbi qulluqçulara göstərdiyi böyük diqqətin təzahürüdür. «Onu da qeyd etməliyəm ki, hərbçilərin xidmət şəraiti də yaxşılaşır. Son illərdə bir çox hərbi şəhərciklərimizdə əsaslı təmir-bərpa işləri aparılmışdır. Bir çox şəhərciklər yenidən tikilmişdir. Hərbçilərin, əsgər və zabitlərimizin xidmət şəraiti də böyük dərəcədə yaxşılaşıb. Bu gün bizim hərbi şəhərciklərimizin, hərbi hissələrimizin, hərbi bazalarımızın təxminən 75-80 faizi standartlara tam cavab verir. Növbəti illərdə qalan, hələ də təmirə ehtiyacı olan hərbi hissələrin təmiri nəzərdə tutulur. Dövlət bu məqsədlər üçün vəsait ayırır və bundan sonra da ayıracaqdır».

Prezident İlham Əliyev bildirib ki, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri üçün son illərdə minlərlə ev və mənzil tikilib, təhvil verilib: «Təkcə bu il 626 şəhid ailəsinə, Qarabağ müharibəsi əlillərinə dövlət tərəfindən mənzillər verilib və gələn il ən azı 800 mənzil veriləcəkdir. Bu kateqoriyadan olan insanlar, eyni zamanda, dövlət tərəfindən minik avtomobilləri ilə təmin olunurlar. Onlara minlərlə avtomaşın verilmişdir. Müharibədən əziyyət çəkən soydaşlarımızın da problemləri öz həllini tapır. Bu il 5800 köçkün ailəsi yeni evlərlə, mənzillərlə təmin edilib. Bu, son illərdə rekord göstəricidir. Biz bu siyasəti gələn il də davam etdirəcəyik».

Dövlət başçısı qeyd edib ki, builki prezident seçkilərindən dərhal sonra imzaladığım birinci Fərman şəhidlərin vərəsələrinin maddi vəziyyətinin yaxşılaşdırılması haqqında olubdur: «Vərəsələrə dövlət tərəfindən 11 min manat vəsait verilməsi nəzərdə tutulub. Artıq bu vəsaitin verilməsi prosesi başlamışdır. Təqribən 10 minə yaxın ailə dövlət tərəfindən bu pul təminatını alacaq. Hazırda siyahılar dəqiqləşdirilir və beləliklə, bu proqramın icrası nəticəsində minlərlə ailə öz maddi vəziyyətini yaxşılaşdıracaq. Bu, dövlətin öz şəhidlərinin qəhrəmanlığına görə göstərdiyi diqqətdir, onların ailələrinə göstərdiyi qayğıdır. Ancaq təbii ki, hər sahədə olduğu kimi, bu sahədə də ədalət prinsipi əsas olmalıdır».

Azərbaycan Prezidenti qeyd edib ki, ölkədə ordu quruculuğu prosesi uğurla gedir. «Ordumuzun maddi-texniki bazası möhkəmlənir, ən müasir texnika, silahlar alınır.

Bu il keçirilmiş iki hərbi parad bizim hərbi gücümüzü bütün dünyaya göstərib. Bu gün ordumuz texniki təchizat baxımından dünya miqyasında seçilən ordular sırasındadır. Əlbəttə ki, bizim güclü hərbi potensialımız Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün əsas amildir. Ordumuzun döyüş qabiliyyəti artır. Bu gün ordumuz istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir. Son illərin hadisələri bunu əyani şəkildə göstərir».

Prezident İlham Əliyev hərbçilərin bir qrupuna mənzillərin orderlərini təqdim edib, sonra hərbi qulluqçuların ailə üzvləri ilə söhbət edib.

# Milli İncəsənət Muzeyinin üçüncü korpusunun açılışı olub

Dekabrın 18-də Azərbaycan Milli İncəsənət Muzeyinin üçüncü korpusunun əsaslı təmir və yenidənqurmadan sonra açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak edib.



Dövlət başçısına və birinci xanıma görülən işlərlə bağlı məlumat verilərək bildirilib ki, Azərbaycan Milli İncəsənət Muzeyi XIX əsrdə inşa edilmiş iki yanaşı tarixi binada yerləşir. 1891-1893-cü illərdə Bakının baş memarı Nikolay fon der Nonne tərəfindən tikilmiş binada ayrı-ayrı vaxtlarda müxtəlif idarə və təşkilatlar yerləşib. 1936-cı ildə əsası qoyulan İncəsənət Muzeyi 1951-ci ildən bu binada fəaliyyətini davam etdirib. Burada çox sayda qiymətli sənət əsərinin yerləşdirilməsi və ekspozisiyanın ildən-ilə zənginləşdirilməsi bu sənət məbədinə marağı daha da artırıb. Zaman keçdikcə təbii aşınmalar nadir sənət nümunələrinin toplandığı bu binanın təmiri zərurətini yaradıb. Əvvəllər burada belə genişmiqyaslı təmir işləri aparılmayıb. Prezident İlham Əliyevin Sərəncamı ilə muzeydə əsaslı təmir və yenidənqurma işləri görülüb. «Mariinski Qadın Gimnaziyası» adlanan birinci korpus 2009-cu ilin sentyabrında istifadəyə verilib.

2014-2018-ci illərdə isə muzeyin «De Burun malikanəsi» adlanan korpusunda İtaliya və Azərbaycan mütəxəssislərinin birgə səyləri ilə əsaslı təmir işləri həyata keçirilib. Binanın memarlığı və qədimliyi saxlanılmaqla həm texniki, həm də texnoloji baxımdan lazım olan innovativ və yeni funksionallığı təmin edilib.

Yenidənqurma və əsaslı təmir işləri ilə yanaşı, binada ekspozisiya zalları genişləndirilib, binanın seysmik davamlılığı artırılıb. On səkkiz mindən çox eksponatın saxlanıldığı Milli İncəsənət Muzeyində rəngkarlıq, qrafika, heykəltəraşlıq və tətbiqi sənət nümunələri nümayiş olunur. Üçüncü korpusda isə 2 mindən çox eksponat saxlanılır.

Muzeydə dünya incəsənəti nümunələri də nümayiş etdirilir. Ekspozisiya planına əsasən kolleksiyanı Qərbi Avropa, o cümlədən İtaliya, Hollandiya, Almaniya, Fransa, həmçinin Rusiya və Çin, Türkiyə, İran və Hindistan da daxil olmaqla Şərq incəsənəti təşkil edir. İlk dəfə olaraq yeni ekspozisiyada qədim dünya incəsənəti də təqdim olunur: buraya qədim Misir, qədim Yunanıstan, qədim Roma və qədim İran incəsənətləri daxildir. Bununla yanaşı, ilk dəfə olaraq Fransa zallarında fransız impressionistlərin əsərlərini görmək mümkündür. Bundan başqa, muzeyin ekspozisiyasında Rusiya avanqardı ilə yanaşı, avanqard çini məmulat və əsərləri də seyr etmək imkanı olacaq.

Binada aparılan yenidənqurma və əsaslı təmir işləri, nümayiş etdirilən zəngin kolleksiya ilə yaxından tanış olan Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mədəniyyət ocağının fəaliyyətinə uğurlar arzulayıblar.

# Rəsmi xronika

■ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 14-də Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunu qəbul edib.

Ölkə başçısı Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin bu gün ən yüksək səviyyədə olduğunu qeyd edib, 2018-ci ilin əlaqələrimizin daha da möhkəmləndirilməsi baxımından çox məhsuldar il olduğunu vurğulayıb. Birgə həyata keçirilən layihələrdən danışan Prezident İlham Əliyev TANAP, TAP, Bakı-Tbilisi-Qars və eləcə də digər layihələrin dünya üçün böyük əhəmiyyət daşıdığını və ölkələrimizin bütün məsələlərlə bağlı bir-birini dəstəklədiyini xatırladıb. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli işində Türkiyənin hər zaman birmənalı şəkildə Azərbaycanın yanında olduğu qeyd edilib.

Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib ki, qardaş Azərbaycan və Azərbaycanın lideri Prezident İlham Əliyev hər zaman Türkiyənin yanında olub və Türkiyə də eyni şəkildə həmişə Azərbaycanın yanındadır. Azərbaycan və Türkiyə dövlətləri başçılarının səmimi dostluğu və qardaşlığı, onların verdiyi tapşırıqlar sayəsində iki ölkənin Xarici İşlər nazirlikləri sıx qarşılıqlı fəaliyyət göstərirlər.

■ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 13-də Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovu qəbul edib. Azərbaycan dövlətinin başçısı bildirib ki, 2018-ci il iki ölkə arasında münasibətlərin inkişafı baxımından çox məhsuldar il olub. «Yüksək səviyyədə xeyli görüşlər, o cümlədən mənim Rusiyaya sentyabrın əvvəlində rəsmi səfərim və Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinin sentyabrın sonlarında Azərbaycana səfəri olub. Bu səfərlər çərçivəsində biz qarşılıqlı fəaliyyətimizin çox mühüm məsələlərini müzakirə etmişik, gələcək əməkdaşlıq yollarını müəyyənləşdirmişik.

Biz beynəlxalq strukturlarda fəal qarşılıqlı fəaliyyət göstəririk. Lap bu yaxınlarda - bir həftə əvvəl MDB-nin Sankt-Peterburqda qeyri-formal sammiti keçirildi. Bu, təşkilatın üzvlərinin fəaliyyətini gücləndirmək üçün çox əlamətdar hadisə idi.

Bu il aktiv fəaliyyətə başlayan hökumətlərarası komissiyanın yeni tərkibi formalaşdırılıb. Bu yaxınlarda görüşəcəklər. Həmçinin Rusiya-Azərbaycan İşgüzar Şurasının yeni tərkibi formalaşdırılıb. Yəni, biz ticari-iqtisadi əlaqələrə, investisiya proqramlarına dinamika vermişik. Düşünürəm ki, nəticələr çox yaxşı olacaq». Rusiyanın xarici işlər naziri Sergey Lavrov bildirib ki, Rusiya Azərbaycanla beynəlxalq arenada, BMT-də, Avropa Şurasında qarşılıqlı fəaliyyəti yüksək qiymətləndirir: «Biz, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Bakı ilə Yerevan arasında birbaşa dialoqa kömək göstərməyə davam etmək istəyirik. İstəyirik ki, münaqişə ədalətli, qarşılıqlı məqbul həll olunsun».

# Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutu əsaslı yenidənqurmadan sonra istifadəyə verilib

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 18-də Səhiyyə Nazirliyinin Bakıdakı Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunda əsaslı yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olublar. Dövlətimizin başçısına görülən işlər barədə məlumat verilib. Bildirilib ki, Azərbaycanda bütün sanatoriya və kurort müəssisələrinin elmi cəhətdən əsaslandırılması, orada aparılan müalicə bu institut tərəfindən hazırlanmış elmi-metodiki tövsiyələr əsasında aparılır. İnstitutda konsultativ poliklinika, stasionar, diaqnostik tədqiqatlar və fiziki üsullarla müalicə şöbələri fəaliyyət göstərir. Tibb ocağının stasionar hissəsində terapiya, artrologiya və nevrologiya bölmələri olacaq. Diaqnostik tədqiqatlar bölməsində 3 laboratoriya yaradılıb. Kliniki-immunologiya, biokimyəvi və kliniki neyrofiziologiya laboratoriyalarında ən müasir avadanlıq quraşdırılıb. Bu avadanlıq laborator müayinələri qısa müddətə, həm də keyfiyyətlə aparmağa hərtərəfli imkan verir.

Müalicəvi şöbələrə isə Naftalan nefti ilə müalicə, fizioterapiya və tibbi bərpa şöbələri, həmçinin müalicəvi bədən tərbiyəsi kabineti aiddir. Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutundakı oftalmoloq, stomatoloq, terapevt, USM, EKQ, balneoloji vanna və digər otaqlar da müasir tibbi avadanlıqla təchiz olunub.

İnstitutun elm bölməsində 43 elmi işçi, klinika bölməsində 43 həkim, 76 tibb bacısı və 118 nəfər digər işçi olmaqla, burada ümumilikdə 280 nəfər çalışır. İşçilərin 20 nəfəri fəlsəfə doktoru, 3 nəfəri tibb elmləri doktoru, 2 nəfəri professor, 1 nəfəri isə professor, Əməkdar elm xadimi olmaqla AMEA-nın müxbir üzvüdür.


Məqsəd daha əlverişli və hamı üçün eyni biznes mühiti yaratmaqdır
səh. 2

Əməkdaşlıq münasibətləri vergi intizamının güclənməsinə xidmət etməlidir
səh. 3

Vergi ödəyiciləri üçün daha bir məqsədli güzəşt
səh. 4

«Kölgə iqtisadiyyatı»na qarşı mübarizə: şəffaflıq ən düzgün yoldur
səh. 5

# IOTA-nın sammitinə həsr olunmuş jurnal nəşr olunub

Bu günlərdə Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA), Amerikadaxili Vergi Administrasiyaları Mərkəzi (CIAT) və Portuqaliyanın Vergi və Gömrük Orqanının birgə təşkilatçılığı ilə Lissabon şəhərində keçirilmiş «Rəqəmsal İqtisadiyyat»a dair Vergi Sammitinə həsr olunmuş xüsusi nəşr çapdan çıxıb. Nəşrdə Azərbaycanın vergilər naziri Mikayıl Cabbarovun Sammitin «Vergi inzibatçılığı 10-15 il sonra: dəyişikliklərin tempinə necə uyğunlaşmalı» mövzusunda keçirilən sessiyasında çıxışına da yer verilib. Həmin yazıda vergilər naziri Mikayıl Cabbarovun dünyada baş verən sürətli dəyişiklik tempi, inkişaf edən yeni iqtisadi tələblərə uyğunlaşmaq ehtiyacı və yeni texnologiyalardan geniş istifadəsi, bu prosesdə vergi orqanlarının rolunun artması barədə fikirləri öz əksini tapıb. Azərbaycanda rəqəmsal iqtisadiyyatın qurulması və vergi inzibatçılığının rəqəmsallaşdırılması sahəsində görülən işlərə toxunan Mikayıl Cabbarov ölkəmizdə uzun illərdir ki, vergi bəyannamələrinin elektron təqdim edildiyini, elektron vergi hesab-fakturasının tətbiqinin həyata keçirildiyini, eyni zamanda vergi ödəyicilərinə çoxsaylı elektron xidmətlər göstərildiyini diqqətə çatdırıb. Qeyd edib ki, vergi inzibatçılığında rəqəmsal texnologiyalardan, xüsusən də süni intellekt və blokçeyn texnologiyalarının təqdim etdiyi üstünlüklərdən istifadə artıq zamanın tələbinə çevrilib. Bu baxımdan, vergi administrasiyaları məlumat mübadiləsi və şəffaflıq kimi güclü alətlərin imkanlarından istifadə etməyə çalışmalıdırlar. Qeyd olunub ki, IOTA və CIAT kimi təşkilatlara üzv ölkələr bu sahədə onların təcrübəsindən geniş şəkildə faydalanmalıdır. Vergilər naziri vergilərlə bağlı ictimai məlumatlandırma işinin vacibliyini və bu məsələnin növbəti illər üçün prioritet istiqamətlərdən olacağını diqqətə çatdırıb.




# Vergi orqanlarına daxil olmuş vətəndaş müraciətlərinə vaxtında baxılır

2018-ci ilin noyabr ayı ərzində vergi orqanlarına 8.638 müraciət daxil olub ki, onların da 86,6 faizi ərizə, 13,1 faizi şikayət, 0,3 faizi təklifdir. Müraciətlərin 36,1 faizi kameral vergi yoxlamaları, 35,8 faizi müxtəlif arayışların alınması, 10,8 faizi vergi borcları, 2,6 faizi vergidən yayınma, qanunsuz sahibkarlıq fəaliyyəti, nağd hesablaşmaların aparılması qaydalarının pozulması, qalanları isə digər məsələlərlə bağlı olub. Bütün müraciətlərə vaxtında baxılıb, 77,1 faizi müsbət həll olunub.

Ay ərzində Vergilər Nazirliyinin mərkəzi aparatı, yerli vergi orqanları və vergi ödəyicilərinə xidmət mərkəzləri də daxil olmaqla bütün qurumlarda vergi orqanlarının müxtəlif səviyyədə rəhbər vəzifəli şəxsləri və vergi əməkdaşları tərəfindən ümumilikdə 326 vətəndaş qəbul edilərək, onlara qanunvericilik çərçivəsində lazımi köməklik göstərilib və ya müvafiq izahatlar verilib.

# Azərbaycan ən çox bu ölkələrə məhsul ixrac edib

Bu ilin yanvar-noyabr aylarında Azərbaycan ən çox İtaliyaya məhsul ixrac edib.

AZƏRTAC-ın məlumatına əsasən, yanvar-noyabr aylarında ixracda əsas ölkələrin siyahısında ilk sırada İtaliya olmaqla, Türkiyə və İsrail qərarlaşıb. İtaliyaya ixrac 5 milyard 551 milyon 843 min ABŞ dolları, Türkiyəyə 1 milyard 550 milyon 163 min dollar, İsrailə isə 1 milyard 104 milyon 297 min dollar dəyərindədir.

Azərbaycanla ticarət dövriyyəsində əsas ölkələrin siyahısında ilk üçlükdə İtaliya, Türkiyə və Rusiya dayanır. İtaliya ilə ticarət dövriyyəsi 5 milyard 855 milyon 908 min ABŞ dolları, Türkiyə ilə 2 milyard 987 milyon 605 min dollar, Rusiya ilə isə 2 milyard 226 milyon 512 min dollar dəyərində olub.




# Məqsəd daha əlverişli və hamı üçün eyni biznes mühiti yaratmaqdır

Vergilər nazirinin müavini Sahib Ələkbərov 2019-cu il yanvarın 1-dən qüvvəyə minəcək Vergi Məcəlləsinə dəyişikliklərlə bağlı ATV-də yayımlanan «İqtisadi zona» proqramının suallarını cavablandırıb



### Şəffaflıq birinci şərtdir

Vergilərlə bağlı hansı sahələrdə şəffaflaşmaya daha çox ehtiyac olması və Vergi Məcəlləsində edilmiş dəyişikliklərin sahibkar və dövlət maraqları baxımından izahı barədə sualı cavablandıran Sahib Ələkbərov bildirib ki, Vergilər Nazirliyi həyata keçirilən islahatlarda şəffaflaşmaya xüsusi önəm verir: «Vergiyə münasibətdə şəffaflaşmadan yalnız iki məsələ kənarda qala bilər: dövlət sirri və vergi sirri. Qalan bütün sahələrdə şəffaflaşma təmin olunmalıdır və bu, dövlət başçısının bizim qarşımızda qoyduğu ən əsas məsələlərdən biridir.

Vergi Məcəlləsinə dəyişikliklərə və bütövlükdə vergi sistemində həyata keçirilən islahatlara sahibkarların və vətəndaşların, eləcə də dövlətin maraqları baxımından yanaşılır. Xərc və əziyyət çəkib iş quran sahibkarın marağı mümkün qədər çox mənfəət əldə etməkdir. Sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan vətəndaş da işləyir, zəhmət çəkir və çalışır ki, yüksək əməkhaqqı alsın. Bunlar tamamilə təbiidir. Amma hər kəs əldə etdiyi gəlirdən, aldığı əməkhaqqıdan dövlətə vergi ödəməlidir. Bu, hər bir vətəndaşın borcudur: Konstitusiyamızın 73-cü maddəsində də təsbit olunub ki, qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur».

Ən ciddi və həssas məsələlərdən biri dövlət maraqları ilə vətəndaş və sahibkarın maraqlarının uzlaşdırılmasıdır. «Dövlətin büdcəsinin gəlirlərinin böyük hissəsi vergi daxilolmaları hesabına formalaşır və bunun sayəsində də dövlət milli təhlükəsizliyin və asayişin təmin olunması, əhalinin rifah halının daha da yaxşılaşdırılması, təhsilin, səhiyyənin inkişafı və üzərinə düşən sair vəzifələrin icrası ilə bağlı xərclərini qarşılayır. Digər tərəfdən, dövlət vergiləri müəyyən edərkən vergi dərəcələrinin optimallığına xüsusi əhəmiyyət verir. Çünki vergi dərəcələrinin yüksək olması sahibkarın mənfəət əldə etmək və vergiləri ödəmək imkanlarını məhdudlaşdıra bilər. Vergi dərəcələri aşağı olanda isə, əksinə, dövlət büdcəsinin gəlirlərinin formalaşmasında çətinlik yarana bilər. Yəni bütün bunlar bir-biri ilə sıx bağlı olan məsələlərdir. Ona görə də Azərbaycan dövləti bu məsələni xüsusi həssaslıqla tənzimləməyə, elə bir vergi mexanizmi müəyyənləşdirməyə çalışır ki, sahibkarlar və vətəndaşlar dövlət tərəfindən müəyyən olunmuş vergiləri könüllü surətdə, heç bir çətinlik çəkmədən ödəyə bilmək iqtidarında olsunlar. Vergi orqanları da öz növbəsində ölkə başçısının tapşırıqlarına uyğun olaraq, daim vergi inzibatçılığını təkmilləşdirməyə, sahibkarlar üçün daha əlverişli biznes mühiti formalaşdırmağa, nəzarət tədbirlərinin sayını ildən-ilə azaltmağa çalışır. Təkcə onu qeyd etmək kifayətdir ki, bu ilin ilk on ayı ərzində səyyar vergi yoxlamalarının sayı təxminən üç dəfə azaldılıb, orta hesabla 300 vergi ödəyicisindən yalnız birində səyyar vergi yoxlaması aparılıb. Məqsəd sahibkarların sərbəst fəaliyyət göstərməsi üçün münbit şərait yaratmaqdır»...

> Əmək qabiliyyətli 4,5 milyon əhalinin 1,5 milyon nəfəri muzdlu işlə məşğuldur. Bəs yerdə qalanlar?

### 500 mindən çox vətəndaş əməkhaqqıdan tutulan gəlir vergisi ilə bağlı güzəştdən faydalanacaq

Sahib Ələkbərov daha bir mühüm məsələni - əməkhaqqıdan tutulan gəlir vergisi ilə bağlı islahatların mahiyyətini də şərh edib. Edilən dəyişikliyin sahibkarlar və vətəndaşlar üçün çoxlu faydalar verəcəyini vurğulayan nazir müavini bildirib ki, bu mövzunun daha çox müzakirə olunması təbiidir, çünki hamının maraqları ilə səsləşir: «Vergi Məcəlləsinə edilən dəyişikliklərlə ilk dəfə olaraq vergidən azad olunan əməkhaqqının məbləği 8.000 manata qədər artırılıb. Dövlət və neft-qaz sektorunda çalışanlar istisna olmaqla, yalnız qeyri-dövlət sektorunda çalışan 500 mindən çox adam bu vergi güzəştlərindən faydalana biləcək və yeddi il onlar əməkhaqqıdan gəlir vergisi ödəməyəcəklər. 2019-cu ilin büdcəsində gəlir vergisi üzrə daxilolmaların 316 milyon manat azaldılması nəzərdə tutulub. Bütövlükdə planlı şəkildə dövlət büdcəsinə vergi daxilolmalarında azalma təxminən 400 milyon manata yaxındır. Bu isə o deməkdir ki, həmin vəsaitlər sahibkarların və vətəndaşların sərəncamında qalacaq...

Bu güzəştin yalnız qeyri-neft-qaz, özəl sektora aid olmasını, mediada bəzən məsələnin mahiyyətinə varmadan, diskriminasiya kimi dəyərləndirənlər də olur. Məsələni belə qoyurlar ki, bu dəyişiklik niyə neft-qaz sahəsində və ya dövlət qulluğunda çalışanlara şamil olunmur? Əslində, məsələyə bu cür yanaşmaq düzgün deyil. Əgər bu dəyişiklik hamıya şamil edilsəydi, onun adı güzəşt deyil, sadəcə, vergi dərəcəsinin azaldılması olardı. Amma bu, güzəştdir, güzəşt isə yalnız müəyyən müddətə və müəyyən sahələrə tətbiq edilir və bu, bütün dünyada belədir. Güzəştin məqsədi odur ki, tətbiq olunduğu problemli sahələrdə müsbət dəyişikliklər üçün şərait yaratsın. Digər tərəfdən, hər bir güzəştin müəyyən maliyyə tutumu var və bu gün büdcəmiz belə bir maliyyə imkanına malik deyil ki, bu dəyişikliklər hamıya şamil edilsin.

Bizim əmək bazarında çox ciddi problemlər var, əmək qabiliyyətli əhalinin sayı təxminən 4,5 milyon nəfərdir və bunun 1,5 milyon nəfəri muzdlu işlə məşğuldur. Bəs yerdə qalanlar? Əlbəttə, onların da böyük bir qismi işləyir və müəyyən məbləğdə gəlir əldə edir. Lakin onlar əmək bazarında rəsmi qeydiyyatda olmayan işçi kimi iştirak edirlər. Təbii ki, belə hallar iqtisadiyyatda ciddi problemlər yaradır».

Sahib Ələkbərov problemin sağlam rəqabət mühitinə mənfi təsir göstərdiyini vurğulayıb: «Təsəvvür edin ki, bir sahibkar fəaliyyətini normal qaydada qurur, şəffaf şəkildə işləyir və qanunun tələblərinə tam əməl edir. Digər sahibkar isə qanuna əməl etmir, işə götürdüyü şəxslərlə əmək müqaviləsi bağlamamaqla həm onların gələcəkdə pensiya təminatı və digər məsələlərlə bağlı hüquqlarını pozur, həm də vergidən yayınır və başqa sahibkarlara nisbətən müəyyən üstünlüklər əldə etmiş olur. Belə bir şəraitdə sağlam rəqabətdən söhbət gedə bilərmi? Ona görə də bu gün dövlət vergi orqanı qarşısında vəzifə qoyur ki, qanunun tələblərinə əməl edən və şəffaf işləyən sahibkarın yanında olsun, ona kömək etsin. Şəffaf fəaliyyət göstərmək istəməyənlər və vergidən yayınanlar isə gec-tez öz qarşısında vergi müfəttişini görməlidir! Məcəlləyə dəyişikliklərdə qanunsuz fəaliyyətlərin qarşısını almaq üçün inzibati cəza mexanizmləri və sanksiyalar da sərtləşdirilib. Lakin bu sanksiyaların qanunlara əməl edən sahibkarlara heç bir aidiyyəti yoxdur və intizamlı vergi ödəyicisi bundan narahat olmamalıdır. Dövlətin qoyduğu qanunları pozan, qanunsuz yollarla öz həmkarlarını çətin vəziyyətə salmağa çalışan hər kəs isə qanunun gücünü öz üzərində hiss etməlidir.

Onu da xüsusi olaraq vurğulamaq lazımdır ki, Məcəlləyə belə bir maddə də əlavə olunub ki, Vergi Məcəlləsində bu il edilən dəyişikliklərlə bağlı hər hansı qanun pozuntusu aşkarlanarsa, birinci dəfə həmin vergi ödəyicisinə qarşı sanksiya tətbiq oluna bilməz. İlk dəfə belə sahibkarlara yalnız yazılı şəkildə xəbərdalıq ediləcək. İkinci və sonrakı dəfələrdə isə qanun pozuntusuna yol verənlərə qarşı sanksiyalar tətbiq olunacaq».

> Dövlət və neft-qaz sektorunda çalışanlar istisna olmaqla, yalnız qeyri-dövlət sektorunda çalışan təxminən 500 mindən çox adam əməkhaqqından gəlir vergisi ilə bağlı güzəştdən faydalana biləcək

### Güzəştlərdən sui-istifadə yolverilməzdir!

Sahib Ələkbərov gələn ilin əvvəlindən tətbiqinə başlanacaq daha bir ciddi islahat - sadələşdirilmiş vergi dərəcələrinin aşağı salınması, bu vergi növünün əhatə dairəsinin məhdudlaşdırılması, habelə ƏDV-yə cəlb edilən dövriyyənin tədricən genişlənməsi məsələsinə də aydınlıq gətirib. Qeyd edilib ki, sadələşdirilmiş vergi tətbiq olunarkən onun sahibkarlar üçün daha rahat iş şəraiti yaratmaqla yanaşı, normal vergi uçotunun formalaşdırılmasına da şərait yaradacağına ümid edilirdi və ilk dövrlərdə həqiqətən də belə olmuşdu. «Lakin son vaxtlar nə müşahidə olunur? Hazırda ölkə üzrə qeydiyyatda olan vergi ödəyicilərinin 90 faizindən çoxu sadələşdirilmiş vergi ödəyiciləridir. Vergi daxilolmalarında bu verginin xüsusi çəkisi isə 5 faizdən bir az çoxdur. Halbuki bir çox ölkələrdə bu göstərici 40 faiz civarındadır.

Son vaxtlar bəzi sahibkarlar sadələşdirilmiş vergidən bir vergidən yayınma sxemi kimi istifadə etməyə cəhd göstərməyə başlayıblar. Bir sıra böyük müəssisələr öz biznesini ayrı-ayrı xırda hissələrə «parçalayaraq» sadələşdirilmiş vergi ödəyicisi kimi fəaliyyət göstərir, digər vergiləri ödəməkdən yayınırlar. Üstəlik, onlar sadələşdirilmiş vergini 2 faizlə ödəmək üçün Bakıda fəaliyyət göstərsələr də, öz bizneslərini regionlarda qeydiyyatdan keçirirlər və bununla da vergi uçotu üçün ciddi problemlər yaradırlar. Bütün bunların qarşısının alınması məqsədilə Vergi Məcəlləsində zəruri dəyişikliklər edilib».

> Sanksiyaların qanunlara əməl edən sahibkarlara heç bir aidiyyəti yoxdur və intizamlı vergi ödəyicisi bundan narahatlıq hissi keçirməməlidir

Qeyd edilib ki, sadələşdirilmiş vergi ləğv olunmayacaq. Lakin bəzi sahələr var ki, həmin fəaliyyət istiqamətləri üzrə iş qurmuş sahibkarlar sadələşdirilmiş vergi ödəyicisi ola bilməyəcəklər: «Məsələn, indiyədək dövriyyəsi kifayət qədər böyük olan bəzi sahibkarlar dövlətdən lisenziya aldığı halda, sadələşdirilmiş vergi ödəyicisi kimi fəaliyyət göstərirdilər. Amma gələn ildən bu, belə olmayacaq. Məlum olduğu kimi, yalnız xüsusi nəzarət tələb edən sahələrə lisenziya verilir və bu lisenziyaların sayı çox azdır. Topdansatış ticarətlə, eləcə də qızıl məmulatlarının, xəz-dəri məhsullarının satışı və bəzi digər fəaliyyət növləri ilə məşğul olan sahibkarlar da sadələşdirilmiş vergi ödəyicisi ola bilməyəcəklər».

### «Biz illərlə oturub gözləyə bilmərik»

Nağd hesablaşmaların səviyyəsinin azaldılması, nağdsız dövriyyənin stimullaşdırılması istiqamətində həyata keçirilən islahatlarla bağlı sualı cavablandıran Sahib Ələkbərov bu sahədə də ciddi pronblemlər olduğunu bildirib: «Şəffaflaşmaya ən çox mane olan və əngəl törədən amillərdən biri nağdsız ödənişlərin səviyyəsinin həddindən artıq aşağı olmasıdır. Azərbaycan vətəndaşları xaricə gedərkən orada nağdsız qaydada, yəni kart vasitəsilə həyata keçirdikləri ödənişləri öz ölkəmizdə etmirlər. Bunun bir səbəbi ticarət və iaşə obyektlərində POS-terminalların tətbiqində problemlərin olması ilə bağlıdırsa, digər səbəbi də alıcıların öz haqlarını tələb etməməsi, köhnə vərdişlərə, kartlardan istifadəyə deyil, nağd pulla ödəniş etməyə üstünlük vermələridir. Azərbaycanda nağdsız ödənişlərin səviyyəsini qaldırmaq üçün bu sahədə ciddi dönüş yaradılmalıdır. Çünki dövriyyədəki məbləğlər çox böyükdür və bu, «kölgə iqtisadiyyatı»nın çiçəklənməsi üçün şərait yaradan amillərdən biridir».

2016-cı ildə Azərbaycanda nağdsız hesablaşmalar haqqında qanunun qəbul olunduğu, nağdsız ödənişlərin inkişafı üçün lazımi hüquqi baza yaradıldığı xatırladılaraq vurğulanıb ki, Məcəlləyə edilmiş yeni dəyişikliklərdə bu sahədə ciddi stimullaşdırıcı tədbirlər nəzərdə tutulub: «Ümumi mövqe bundan ibarətdir ki, nağdsız hesablaşmadan həm alıcı, həm də satıcı - yəni sahibkar faydalana bilsin. Məsələn, ödəniş nağdsız qaydada, POS-terminal vasitəsilə aparıldıqda ƏDV-nin 15 faizi alıcıya qaytarılacaq. Ödəniş nağd şəkildə aparıldıqda isə alıcıya nəzarət-kassa aparatı vasitəsilə həyata keçirilən hesablaşma çeki əsasında ƏDV-nin 10 faizi qaytarılacaq.

Sahibkara gəldikdə isə, onun ümumi dövriyyəsindəki nağdsız hesablaşmaların xüsusi çəkisi müəyyənləşdiriləcək və həmin məbləğə 25 faiz güzəşt tətbiq olunacaq. Dövlət bunu ona görə edir ki, həm sahibkar-satıcı, həm də istehlakçı-alıcı nağd hesablaşmada maraqlı olmasın. Amma bu işə əngəl olan məsələlərdən biri də oturuşmuş vərdişlərdir ki, onlardan da imtina etməyin vaxtı çoxdan çatıb»...

Sahib Ələkbərov müsahibənin sonunda diqqəti Azərbaycanın fəal vergi sisteminin tarixinin çox cavan olmasına yönəldib: «Biz bu gün özümüzü vergi sisteminin yüz illərlə tarixi olan ölkələrlə müqayisə edə bilmərik. Lakin oturub illərlə gözləyə də bilmərik. Ona görə də həm qanunvericilik, həm də inzibatçılıq təkmilləşdirilir, dövlət büdcəsi üçün bəzi maddi itkilər hesabına başa gəlsə belə, geniş stimullaşdırıcı tədbirlərdən istifadə olunur. Nəticə etibarilə bundan bizim iqtisadiyyatımız və vətəndaşlarımız udacaqlar».

*Hazırladı:*
**Elxan SALAHOV**

# Əməkdaşlıq münasibətləri vergi intizamının güclənməsinə xidmət etməlidir



Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin baş direktoru Xəqani İsgəndərovla müsahibə

**- Xəqani müəllim, vergi orqanlarının apardıqları yoxlamaların sayının azalması vergidən yayınma hallarının qarşısının alınması ilə bağlı tədbirlərin effektivliyinə necə təsir göstərir?**

- Vergi orqanlarının qarşısında duran əsas vəzifələrdən biri vergidən yayınma hallarının qarşısını almaq, vergi ödəyicilərinin vergi öhdəliklərini tam və vaxtında yerinə yetirilməsi üzərində nəzarəti təmin etməkdir. Ölkə başçısı cənab İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında vergidən yayınma hallarına son qoyulması, bu sahədə qətiyyətli tədbirlərin görülməsi və şəffaflığın təmin edilməsi, vergilərin tam şəkildə dövlət büdcəsinə ödənilməsi ilə bağlı vergi orqanlarına mühüm tapşırıqlar verib.

Məlum olduğu kimi, Vergilər Nazirliyi 2018-ci ili «kölgə iqtisadiyyatı»ndan şəffaf iqtisadiyyata keçid ili kimi qəbul edib. Artıq sonuna çatdığımız il sahibkarlıq subyektlərinə malların sənədsiz dövriyyəsinin aradan qaldırılması, gəlir və xərclərin uçotunun rəsmiləşdirilməsi, dövriyyələrin şəffaflaşdırılması, yol verilən vergidən yayınma sxemlərinin ləğv edilməsi və şəffaf fəaliyyətə keçid dövrü idi. Vergi orqanları, bu sahədə ilk addım ataraq vergi yoxlamalarının sayını azaldıb, funksional idarəetmənin səmərəliliyinin artırılması üçün struktur və kadr dəyişiklikləri aparıb. Əsas yanaşma budur ki, vergi orqanları sahibkarlarla münasibətlərini təzə və təmiz səhifədən başlamalıdırlar. Təbii ki, bu, müəyyən hazırlıq tələb edir. Bu hazırlıq vergi orqanları üçün öz strukturunu və iş metodlarını dəyişməkdirsə, sahibkar üçün mövcud çatışmazlıqları aradan qaldırmaqdır.

**- Bu mövqe biznes ictimaiyyəti tərəfindən necə qarşılandı?**

- Bütövlükdə vergi orqanlarının bu çağırışları işgüzar dairələrdə müsbət qarşılanıb. Bu çağırışları qəbul edib, öz uçot sistemini diaqnostika edərək fəaliyyətini şəffaflaşdıran sahibkarlar da olub, keçid ilində «yoxlamalar yoxdur» deyərək əvvəlkindən daha sərbəst şəkildə qanunları pozmaq və vergidən yayınmaq istəyənlər də. Təbii ki, bu çağırışların hamı tərəfindən eyni cür qəbul ediləcəyini gözləmirdik. Keçid ilinin mahiyyəti o demək deyildir ki, həmin ildə sahibkarlar qanunu istədikləri kimi poza bilərlər. Əksinə, riskli sahələrdə vergi nəzarəti tədbirlərini daha da gücləndirmişik. Məsələn, alkoqollu içkilərin istehsalı və aksizsiz tütün məmulatlarının dövriyyəsinə qarşı mübarizə tədbirlərini göstərmək olar. Əgər ilin əvvəlində daxili bazarda qaçaqmalçılıq yolu ilə gətirilən tütün məmulatlarının həcmi 16-18 faiz təşkil edirdisə, görülən tədbirlər nəticəsində bu gün həmin rəqəm 3,5 faizə düşüb. Bundan başqa, bu il avqustun 1-dən alkoqollu içkilərin istehsalı ilə məşğul olan əsas müəssisələrdə aksiz postları qurularkən məlum oldu ki, tünd içkilərin istehsalının həcmi 5 dəfəyədək azaldılırmış. Qeyd edim ki, bir məhsul növünün adı altında faktiki olaraq digərinin istehsalı, saxta aksiz markalarından istifadə və aksiz markası olmadan məhsul istehsalı və s. kimi hallar çox geniş yayılmışdı. Aparılan tədbirlər nəticəsində məhsulların dövriyyəsinin şəffaflaşması, aksizlərdən düzgün istifadə edilməsi istiqamətində ciddi dönüş yaranıb. Lakin təəssüflə qeyd edirəm ki, bu cür qanun pozuntuları digər sahələrdə də mövcuddur.

> **“Qanunu pozan, dövriyyəsini gizlədən, vergidən yayınan hər bir vergi ödəyicisinin sanksiyalarla üzləşməsi qaçılmazdır**

**- Xəqani müəllim, Vergilər Nazirliyinin özəl tibb müəssisələrində vergi yoxlamaları apardığı bildirilirdi. Bu yoxlamaların ilkin nəticələri barədə məlumat verə bilərsinizmi?**

- Vergilər Nazirliyi bu ilin may-iyun aylarında pullu səhiyyə xidmətləri göstərən bir sıra iri müəssisələrin rəhbərlərini vergi orqanlarına dəvət edərək görüşlər keçirib, onlara qanunvericiliyin tələbləri, həmçinin fəaliyyətin şəffaflaşdırılması tələbləri ətraflı izah edilib. Buna baxmayaraq, aparılan təhlillər göstərir ki, ötən dövr ərzində bu müəssisələrin əksəriyyətində dövriyyələrin artması müşahidə olunmayıb. Mövcud rəqəmsal texnologiyalardan istifadə edilməklə bəyannamələrin və əlaqəli məlumatların geniş təhlili nəticəsində həmin müəssisələrdə vergidən yayınma risklərinin yüksək olduğu müəyyən edilib. Göstərilənləri nəzərə alaraq, Vergilər Nazirliyi noyabr ayında özəl tibb müəssisələrində vergi nəzarəti tədbirləri həyata keçirib.

Tədbirlər zamanı vergidən yayınma halları, lisenziyalaşdırma məsələləri ilə bağlı qanunvericiliyin tələblərinə əməl edilməsi məsələləri araşdırılıb, əhali ilə pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, pul vəsaitinin uçotdan gizlədilməsi və ya uçota alınmaması, əmək müqavilələrinin bağlanması vəziyyəti yoxlanılıb. Eyni zamanda, müəssisələrin real dövriyyələrinin müəyyənləşdirilməsi üçün xronometraj metodu ilə müşahidələr aparılıb. Vergi nəzarəti tədbirləri zamanı əldə edilmiş qara mühasibat sənədləri və elektron fayllar əsasında yayındırılmış dövriyyə məbləğləri və ödənilmiş real əməkhaqqı məbləğləri müəyyənləşdirilib.

İlkin araşdırmalar zamanı özəl tibb müəssisələrinin 77 faizində əhali ilə pul hesablaşmalarının aparılması qaydalarına riayət olunmaması, 51 faizində əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin işə cəlb edilməsi, 61 faizində pul vəsaitinin uçota alınmaması hallarına rast gəlinib.

Xronometraj metodu ilə müşahidə yekunlaşdırılmış obyektlər üzrə 2018-ci ilin 9 ayı üzrə cari bəyannamədə göstərilən orta günlük dövriyyə məbləği 2,4 dəfədən çox artıb. Əldə edilmiş sənədlər üzrə aparılmış təhlillər zamanı əvvəlki dövriyyələrin 3,2 dəfə və ya təxminən 231 milyon manata yaxın vəsaitin gizlədildiyi aşkar edilib. Əməkhaqqı üzrə ödəmələrin yayındırılması halları müəyyən edilmiş 22 vergi ödəyicisi üzrə 2018-ci ilin 9 ayında bəyannamələrdəki məbləğlərinin real göstəricilərə nisbətən 7,6 dəfə az əks olunduğu müəyyən edilib. Bəzi özəl tibb müəssisələrinin rəsmi sənədlərində həkimlərə verilən aylıq əməkhaqqı məbləği 130-490 manat göstərilməsinə baxmayaraq, bu məbləğin bir sıra hallarda on minlərlə manat olduğu təsdiqlənib.

Bundan başqa, xəstəxanalardan müayinə üçün göndərilən həkimlərə xəstə tərəfindən ödənilən məbləğlərdən müəyyən faiz şəklində vəsaitlərin ödənildiyi halları da aşkar edilib. Məlum olub ki, bəzi klinikalarda tanınmış həkimlərin gəlirləri əməliyyatdan daxil olmuş məbləğlərin 50-70 faizini əhatə edir. Aparılan yoxlamalar özəl tibb müəssisələrində qeyri-rəsmi əməkhaqlarının geniş tətbiq edilməsini bir daha təsdiq edib.

**- Yoxlamalar davam edirmi?**

- Vergilər Nazirliyi özəl tibb müəssisələrində vergi qanunvericiliyinə əməl olunması ilə bağlı araşdırmaları davam etdirir və nəticələr barədə ictimaiyyətə əlavə məlumat veriləcəkdir.

Qeyd etmək istərdim ki, əgər kimsə əməkdaşlıq münasibətlərinin nəticə etibarilə vergi nəzarətinin zəifləməsinə gətirəcəyini güman edirsə, kökündən yanılır. Bu, tamamilə yanlış fikirdir. Vergilər Nazirliyi yoxlamaların sayını kəmiyyətcə azalda bilər, lakin bu, nəzarət sisteminin zəifləməsi demək deyil. Vergi yoxlamaları məsafədən, vergi risklərinin idarə edilməsi sistemi kimi innovativ alətlərin tətbiqi ilə həyata keçirilir. Mövcud informasiya texnologiyaları müəssisələrin fəaliyyətində vergidən yayınma hallarını və ya belə halların yaranması üçün hər hansı riskin mövcudluğunu aşkar etməyə imkan verir. Yoxlamalar və sanksiyaların tətbiqi bizim məqsədimiz deyil. Lakin fəaliyyət növündən, iqtisadiyyatı əhatə miqyasından asılı olmayaraq qanunu pozan, dövriyyəsini gizlədən, vergidən yayınan hər bir vergi ödəyicisinin yoxlanılması, qanunla nəzərdə tutulmuş qaydada sanksiyalarla üzləşməsi qaçılmazdır.

Sahibkarlıq subyektlərinin nəzərinə çatdırmaq istərdik ki, təsərrüfat subyektlərinin fəaliyyətində qanunvericiliyin düzgün tətbiqi, işə cəlb edilmiş fiziki şəxslərlə əmək müqavilələrinin bağlanması, əməkhaqlarının real məbləğlərinin göstərilməsi, vergi və xüsusi razılıq tələb edən sahələrdə qanunvericiliyin tələblərinə əməl edilməsi zəruridir.

# İslahatlar əmək bazarının leqallaşmasına və vergitutma bazasının genişlənməsinə şərait yaradacaq



Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının sədri Sahib Məmmədovla söhbətimizdə Vergi Məcəlləsində bu sahədə nəzərdə tutulan dəyişikliklərə aydınlıq gətirməyə çalışmışıq.

**- Sahib müəllim, Milli Məclis tərəfindən vergi və sosial sığorta ödənişləri ilə bağlı qanunvericilikdə müvafiq dəyişikliklər edilib. Dəyişiklikləri 3-cü tərəf mövqeyindən ümumi şəkildə necə səciyyələndirmək olar?**

- Hazırda əmək bazarının leqallaşdırılmasını nəzərdə tutan çox mühüm islahatlara start verilib, xüsusilə birbaşa vergi məsələləri üzrə islahatlar daha çox əhəmiyyət kəsb edir. Vergi islahatlarının əsas istiqamətlərindən biri iqtisadiyyatda şəffaflığın təmin edilməsi, «kölgə iqtisadiyyatı»na səbəb olan halların aradan qaldırılması, iqtisadi artımın və sahibkarlığın effektiv dəstəklənməsi, vergitutma bazasının genişləndirilməsi və müasir tələblərə cavab verən vergi münasibətlərinin formalaşdırılmasıdır. Bu siyasətin əsas hədəflərindən biri də, vergi ödənişləri ilə bağlı yükün azaldılması və optimal vergi rejiminin təmin edilməsidir. Hazırda əməkhaqqı üzrə sosial sığorta və vergi yükünün yüksək olması səbəbindən sahibkarlar əməkhaqqının qeyri-rəsmi yolla ödənilməsinə üstünlük verirlər. Bu isə «kölgə iqtisadiyyatı»nın genişlənməsinə yol açır. Bunun qarşısının alınması üçün vergi və sosial yığımlarla bağlı qanunvericilik aktlarına çox mütərəqqi və əhəmiyyətli dəyişikliklər edilib.

Yeni ildən vergi yükünün azaldılması və vergilərin səmərəliliyinin təmin olunması, sosial vergilərlə bağlı tamamilə yeni qaydaların tətbiqi inqilabi dəyişikliklər kimi qiymətləndirilə bilər. Ötən illərdə vergi və sosial ödəmələrlə bağlı bir sıra dəyişikliklər aparılıb, ancaq indiki qədər əhəmiyyətli və əmək münasibətlərinin tənzimlənməsinə hüquqi əsas yaradan mexanizm olmayıb. Ona görə də bu sahədə ciddi dəyişikliklərin aparılması olduqca zəruri idi. İslahatların əsas təşəbbüskarı olan Vergilər Nazirliyinin bu addımlarını yüksək qiymətləndirmək lazımdır. Qanunvericiliyə edilmiş dəyişikliklər vergi və sosial ödənişlər sisteminin fəlsəfəsini dəyişdirir. Burada söhbət təkcə vergi və sosial ödəmələrlə bağlı fundamental və prinsipial yeniliklərdən getmir, ümumilikdə əmək bazarı sisteminin yenidən formalaşdırılmasının mexanizmləri də dəyişir. İşəgötürənə və işçiyə münasibət dəyişir, vətəndaşların əmək hüquqlarının etibarlı və keyfiyyətli qorunması, onların gələcək sosial müdafiəsinin təmin olunması prinsipləri müasir əsaslara uyğunlaşdırılır.

**- Əmək bazarında hazırda vəziyyət necədir, vergi və sosial ödənişlər daha çox hansı sahələrdə yayındırılır?**

- Ölkəmizin əmək bazarında neçə ildir ki, qeyri-rəsmi məşğulluq problemi müşahidə edilməkdədir. Hazırda özəl biznes və dövlət sektoru tərəfindən ən çox səsləndirilən fikir budur ki, sosial sığorta vergisi yüksəkdir. Onlar bunu əsas gətirərək işçilərlə əmək müqaviləsi bağlamır və nəticədə qeyri-leqal əmək bazarı yaranır. Mövcud qanunvericiliyə əsasən, işçilərin əməkhaqqından 14 faiz dərəcə ilə gəlir vergisi və 3,5 faiz dərəcə ilə sosial sığorta tutulması ilə yanaşı, işəgötürən tərəfindən əlavə olaraq 22+0,5 faiz dərəcə ilə sosial sığorta ayırması hesablanır və işəgötürənin vəsaiti hesabına maliyyələşir. Beləliklə, ödənilmiş əməkhaqqına görə işçilərin və işəgötürənlərin ümumi vergi yükü 40-51 faiz arasında dəyişir. Bu səbəbdən də sahibkarlar iş yerlərinin rəsmiləşdirilməsindən yayınır və əməkhaqlarının həqiqi məbləğinin gizlədilməsinə çalışırlar. Bu gün ölkədə 5 milyon nəfərə yaxın iqtisadi fəal əhali olmasına baxmayaraq, muzdlu işçilərin məşğul əhalidə xüsusi çəkisi 31,5 faiz təşkil edir. Bu o deməkdir ki, iqtisadi fəal əhalinin yalnız 1/3-i əmək müqaviləsinə malikdir ki, bu da olduqca aşağı göstəricidir. Kənd təsərrüfatında çalışan əhalinin sayının 1,5 milyon nəfər təşkil etdiyi nəzərə alınarsa, o zaman qalan vətəndaşların sahibkarlıq fəaliyyəti ilə və ya əmək müqaviləsi bağlamadan fərdi əməklə məşğul olduğu aydın görünür. Hesablamalara görə, il ərzində 1,5-2 milyard manat sosial sığorta vəsaitləri dövriyyədən kənarda qalır. Bu hal sosial yığımlarla bərabər, əməkhaqqından tutulan gəlir vergisi üzrə daxilolmalarda da özünü göstərir. Əmək münasibətlərinin rəsmiləşdirilməməsi səbəbindən milyonlarla manat vəsait vergidən kənarda qalır.

> “İslahatlar nəticəsində qeyri-rəsmi məşğulluğun səviyyəsi azalacaq, sahibkarların əmək münasibətlərini rəsmiləşdirməsinə iqtisadi marağı artacaq

Dəyişikliyə əsasən, qeyri-neft sektorunda və qeyri-dövlət sektorunda gəlir vergisi üzrə uzunmüddətli vergi güzəştlərinin tətbiqi nəzərdə tutulub. Təsəvvür edin, hər 1000 manatda 140 manat güzəşt olunur. Paralel olaraq sosial yığımın strukturu dəyişir və sosial ödəmədə işəgötürənlə işçi arasındakı proporsiya dəyişir. 12,5 və 10,5 nisbəti əsasında yeni sosial yığım modeli tətbiq olunur. Bu vəziyyətdə işçinin sosial müdafiə ödəmələri üzrə xərcləri artsa da, gəlir vergisindən əldə etdiyi güzəşt hesabına qazancı artır.

Dəyişikliklərdə mühüm əhəmiyyət daşıyan məqamlardan biri sosial və vergi yığımlarının bir əldə cəmləşməsidir. Bunun Vergilər Nazirliyinə həvalə edilməsi mühüm əhəmiyyət daşıyır. Həm gəlir vergisinin, həm məcburi sosial sığorta haqlarının, həm də işsizliyə görə sığorta ödənişlərinin «bir pəncərə» sistemi ilə tənzimlənməsi, vergi orqanı vasitəsilə həyata keçirilməsi daha effektli olacaq. Bu siyasət həmin sahədə yığımların toplanmasını asanlaşdıracaq, hesabatlılığı təmin edəcək və bu prosesə nəzarətin təşkilinin səmərəliliyini artıracaqdır.

**- Sizcə, bu güzəştlərdən sonra işəgötürən-işçi münasibətləri tamamilə leqallaşacaqmı? Yəni əmək müqaviləsi bağlamadan işçiləri işə cəlb etmək halları aradan qalxacaqmı?**

- Qanunvericiliyə edilmiş dəyişikliklər əmək bazarında münasibətlərin yenidən formalaşmasına səbəb olacaq. İşəgötürən daha mülki-hüquqi müqavilə bağlamağa maraqlı olmayacaq, çünki əmək müqaviləsi onun üçün daha sərfəlidir, bu zaman ondan gəlir vergisi tutulmayacaq. Bu, həm də işçiyə normal maaş verməyə və onu rəsmiləşdirməyə imkan verəcək.

Ancaq əmək bazarında problemlər həddindən artıq böyük olduğundan bunu təkcə vergi stimulları ilə tənzimləmək də mümkün deyil. Çünki qeyri-formal məşğulluğun səviyyəsinə digər amillər də təsir göstərir. Elə sahələr vardır ki, onları əmək müqaviləsi ilə rəsmiləşdirmək mümkün olmur. Əmək bazarında mülki-hüquqi müqavilələrin sayı həddindən artıqdır. Məsələn, evdə bir neçə günlük xidmət göstərən şəxslər var ki, onların əmək funksiyası uzunmüddətli deyil və bu, mülki-hüquqi müqavilə ilə tənzimlənməlidir. Eləcə də muzdlu işlə əlaqədar müqavilə bağlanmasına zərurət yoxdur, özüməşğul insanların sayı kifayət qədər çoxdur, onların əksəriyyəti kölgə iqtisadiyyatının nümayəndələridir. Bu şəxslər evlərdə , müxtəlif yerlərdə müvəqqəti işləri yerinə yetirirlər. Məsələn, evlərdə və bağlarda 3-4 günlük «san-texnik», yaxud suvaqçı işləyən şəxslərlə müqavilə bağlamaq çox çətindir. Eləcə də, ailə-kənd təsərrüfatlarının üzvləri olan fərdi şəxslərlə müqavilə bağlanması da hüquqi baxımdan çətinlik törədir. Bu cür halları aradan qaldırmaq müəyyən vaxt tələb edir. Ancaq hazırda «kölgə iqtisadiyyatı»nın əsas iştirakçıları olan ticarət, tikinti, xidmət və digər müxtəlif fəaliyyət sahələrini mütləq əmək bazarının iştirakçıları kimi vergiyə cəlb etmək mümkündür və bu prosesi tənzimləmək vacibdir.

**- Hər bir islahat güzəşt və stimullarla yanaşı, nəzarətin artırılmasını da tələb edir. Əmək bazarına nəzarətin gücləndirilməsi üçün hansı addımların atılmasını zəruri hesab edirsiniz?**

- Qanunvericilikdə əmək münasibətlərinin pozulmasına görə cərimələrin sərtləşdirilməsi düzgün addımdır. Bu gün iri və orta pərakəndə satış mərkəzləri, kiçik ticarət və xidmət, tikinti və inşaat materialları bazarında əmək münasibətləri təmin olunmayıb və həmin sahələrdə stimullaşdırıcı tədbirlərə baxmayaraq, yenə də bəzi suiistifadə halları istisna deyil. Hazırda Cinayət Məcəlləsində əmək müqaviləsinin bağlanmamasına görə məsuliyyət tədbirləri nəzərdə tutulub ancaq işəgötürənlərin böyük bir qismi bu cəzanın ağırlığını sanki dərk etməyərək yenə də əmək qanunvericiliyinin tələblərini pozurlar. Ona görə də cəzaların sərtləşdirilməsi, cərimə və maliyyə sanksiyalarının artırılması da zəruridir. Çünki hazırda sosial sahədə aparılan islahatlar, işçi-pensiyaçı nisbəti bunu zəruri edir. Hər bir ölkədə bir pensiyaçıya 2-3 işçi düşür. Azərbaycanda 1 milyon 500 min rəsmi əmək müqaviləsi olan vətəndaş və o sayda da pensiyaçı vardır. Yəni 1 pensiyaçıya 1 işləyən vətəndaş düşür. Bu, yaxşı göstərici deyil. Rusiyada bu göstərici bizdən 2 dəfə artıqdır. Şərait artıq bunu diktə edir ki, qeyri-rəsmi məşğul insanların rəsmi məşğulluğa cəlb edilməsi yolu ilə əmək münasibətlərini müasir tənzimləmə vasitəsilə həll edəsən. Çünki Dövlət Sosial Müdafiə Fondunun üzərinə düşən yük ildən-ilə artır: əmək pensiyaçılarının maliyyələşdirilməsi fondun öz gəlirləri hesabına reallaşmalıdır. 2025-ci ilə qədər fondun üzərinə düşən maliyyə yükü 2 dəfə artacaq, bunun qarşısında davam gətirmək üçün sosial ödənişlərin həcmini hər il artırmaq lazımdır. Bu günlərdə dövlət başçısı tərəfindən təsdiq edilən yeni məşğulluq strategiyasında həmin məsələlərin həll edilməsi üçün çox ciddi tapşırıqlar qoyulubdur. Dövlət Əmək Müfəttişliyinə əmək bazarına nəzarətlə bağlı əlavə səlahiyyətlər verilməlidir, vergi orqanları kimi onların da yoxlama aparması təmin edilməlidir.

**- Bəzi şəxslər güzəştlərin büdcəyə ödənilən vergi və sosial ödəmələrin azalmasına səbəb olacağını iddia edirlər...**

- Aparılan islahatların ana xəttini vergi yükünü azaltmaq yolu ilə vergitutma bazasını genişləndirmək təşkil edir. İslahatlar nəticəsində qeyri-rəsmi məşğulluğun səviyyəsi azalacaq, sahibkarların əmək münasibətlərini rəsmiləşdirməsinə iqtisadi marağı artacaq. Nəticə etibarilə iqtisadiyyatda ciddi artımlar qeydə alınacaq. Səmərəli biznes mühiti iş adamlarına fəaliyyət meydanını genişləndirmək və daha çox qazanmaq; dövlətə isə «kölgə iqtisadiyyatı»nın qarşısını almaq və vergitutma bazasını genişləndirməklə öz xəzinəsinə daha çox vəsait toplamaq imkanı yaradacaq. Belə düşünürəm ki, bu sahədə azalmalar olmayacaq. Aparılmış təhlillər və hesablamalarla vahid gəlir vergisinin tətbiqi nəticəsində fiziki şəxslərin muzdlu işdən və muzdlu işə aid olmayan fəaliyyətindən əldə olunan gəlirlər üzrə 2019-cu ildə cəmi 3 milyard 376 milyon manat, o cümlədən fiziki şəxslərin sosial təminatı məqsədilə onlardan tutulması nəzərdə tutulmuş sabit gəlir vergisi üzrə isə 60 milyon manat vergi daxilolmaları ehtimal olunur. İslahatların sosial baxımdan mühüm nəticələri də olacaq. Bu islahatlar qeyri-dövlət sektorunda çalışan təxminən 450 min nəfərin əmək gəlirlərinin artırılmasına xidmət edəcək.

**Elbrus CƏFƏRLİ**

# Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin
Vergi siyasəti departamentinin baş direktoru
vergi ödəyicilərinin suallarına cavab verir

## Gəlir və xərclərin uçotu

***Müəssisəmiz gəlir və xərclərinin uçotunu kassa metodu ilə apardığı halda gəlirin əldə edilməsi və xərcin çəkilməsi vaxtı nə vaxt hesab olunur?***

Vergi Məcəlləsinin (VM) 104.1-ci maddəsinə əsasən rezident müəssisə üçün vergitutma obyekti onun mənfəətidir. Vergi ödəyicisinin bütün gəlirləri (vergidən azad edilən gəlirdən başqa) ilə bu Məcəllənin X fəslində göstərilən, gəlirdən çıxılan xərc arasındakı fərq mənfəətdir. Vergi ödəyicisinin nağd pul vəsaitini aldığı, nağdsız ödəmədə isə pul vəsaitinin bankda onun hesabına və ya sərəncamçısı ola biləcəyi hesaba, yaxud göstərilən vəsaiti almaq hüququna malik olacağı hesaba daxil olduğu vaxt gəlirin əldə edildiyi vaxt sayılır (VM, maddə 132.1). Vergi uçotunun məqsədləri üçün vergi ödəyicisi kassa metodundan istifadə etdikdə xərcin çəkilməsi vaxtı, əgər bu maddədə başqa hallar nəzərdə tutulmamışdırsa, xərcin faktiki çəkildiyi vaxt sayılır. Vergi ödəyicisi pul vəsaitini ödəyirsə, nağd pul vəsaitinin ödənildiyi, nağdsız ödəmədə isə vergi ödəyicisinin pul vəsaitinin köçürülməsi haqqındakı tapşırığının bank tərəfindən alındığı vaxt xərcin çəkildiyi vaxt sayılır (VM, maddə 133). Qeyd olunan müddəalara əsasən: Gəlir və xərclərinin uçotunu kassa metodu ilə aparan müəssisə tərəfindən hesabat ili ərzində əldə etdiyi gəlirdən həmin hesabat ilində çəkilən və gəlirin əldə edilməsi ilə bağlı olan xərclər çıxıldıqdan sonra qalan məbləğdən mənfəət vergisi hesablanıb dövlət büdcəsinə ödənilir.

Suallarınızı redaksiyamızın ünvanına:
AZ 1073, Bakı ş., Landau küç., 16 və ya
**s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- On bir ayda Azərbaycanın ümumi daxili məhsulu 1,0 faiz artaraq **72432,1 milyon** manata çatıb.
- 2018-ci ilin yanvar-noyabr aylarında Azərbaycandan Avropa İttifaqı ölkələrinə **9 milyard 964 milyon 910 min** ABŞ dolları dəyərində məhsul ixrac edilib.
- Cari ilin on bir ayı ərzində Dövlət Gömrük Komitəsinin xətti ilə dövlət büdcəsinə daxilolmalar **3 milyard 253 milyon 78 min** manat təşkil edib.
- 2018-ci ilin yanvar-noyabr aylarında dəmir yolu nəqliyyatı ilə ümumilikdə **5 milyon 983 min 54** ton yük daşınıb ki, bu yüklərin dəyəri **2 milyard 720 milyon 217 min** ABŞ dollarıdır.

## İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

### Əmək müqaviləsinin rəsmiləşdirilməsi

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

**İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:**

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan 2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br><br>Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **7.000** manatdan **10.000** manatadək miqdarda cərimə və ya **2 ilədək müddətə islah işləri** və ya **2 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır.<br><br>**3 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır. |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Əsas meyar ədalətlilikdir

Vergi Məcəlləsində dəyişikliklərin istiqamətlərindən biri sadələşdirilmiş vergini əhatə edir. Bu vergi növü üzrə ödəyicilərin dairəsinin konkretləşdirilməsi və dürüstləşdirilməsi, bəzi məhdudlaşdırılmaların tətbiqi və həmin verginin dərəcəsinin 2 faizə endirilməsi nəzərdə tutulur. Vergi qanunvericiliyinə edilmiş dəyişikliyə əsasən, sahibkarlığın inkişafının dəstəklənməsi və biznesin aparılmasının əlverişliliyinin artırılması məqsədilə sadələşdirilmiş verginin dərəcəsi 4 faizdən 2 faizə endirilib.

Sadələşdirilmiş vergi (Məcəllənin 218.4-cü maddəsində nəzərdə tutulmuş fəaliyyətlə məşğul olan və 218.1.2-ci maddəsində göstərilən vergi ödəyiciləri istisna olmaqla) təqdim edilmiş mallara bu verginin ödəyicilərinin malların təqdim edilməsindən, işlərin görülməsindən, xidmətlərin göstərilməsindən əldə etdiyi vəsaitin məbləğindən (ümumi hasilatının həcmindən) və satışdankənar gəlirlərdən 2 faiz dərəcə ilə hesablanacaq (indiyədək Bakı istisna olunmaqla şəhər və rayonlarda, habelə Naxçıvan Muxtar Respublikasında bu verginin 2 faizlik dərəcəsi tətbiq olunurdu).

### Dəyişikliyi zəruri edən əsas amillər

Vergilər Nazirliyinin Vergi Siyasəti Departamentinin baş direktoru Samirə Musayeva bildirib ki, sadələşdirilmiş vergi dərəcələrinin ölkə üzrə eyniləşdirilməsi, yəni Bakı şəhəri və regionlar üzrə 2 faizlik əmsalın tətbiqi güzəştlərin səmərəliliyinin təmin edilməsi ilə bağlıdır. Təhlillər göstərir ki, bəzi sahibkarlar sadələşdirilmiş vergi növündən sui-istifadə edərək vergidən yayınmaq üçün müxtəlif qanunazidd əməliyyatlar aparırlar. Bir sıra hallarda dövriyyələri 200 min manatdan artıq olan vergi ödəyiciləri bu güzəştlərdən öz məqsədləri üçün istifadə edərək dövriyyələrini azaltmaq üçün bizneslərini bir neçə yerə «parçalayır», bu vasitə ilə vergidən yayınırlar.

S. Musayeva bildirib ki, adətən, sadələşdirilmiş vergitutma metodunu tətbiq edən vergi ödəyiciləri vergilərini təqdim etdikləri mala (işə, xidmətə) görə əldə olunan hasilatdan (xərclər çıxılmadan) hesabladıqları üçün gəlirlərinin və xərclərinin uçotunu aparmır, əməliyyatları lazımi qaydada sənədləşdirmirlər. Bu isə ölkədə həyata keçirilən vergi islahatlarının məqsədlərinə, şəffaflaşma siyasətinə ziddir. Bu cür hallar, əslində, həqiqi sadələşdirilmiş vergi ödəyicisi olan kiçik sahibkarların rəqabətdə qarşısına sədd çəkir, onların rəqabət aparmaq imkanlarını məhdudlaşdırır. Faktiki olaraq kiçik sahibkar olmayan iri və orta biznes təmsilçiləri bu kateqoriyanın güzəştlərindən sui-istifadə edirlər. Əksər hallarda, Bakıda yaşayan və fəaliyyət göstərən sahibkarlar vergi ödəyicisi kimi regionda qeydiyyatdan keçir və 2 faizlik sadələşdirilmiş vergi ödəyirlər. Bu isə vergitutma baxımından ədalətliliyi pozur.

Sadələşdirilmiş vergi sisteminin tətbiqində məqsəd kiçik müəssisələrin və fərdi sahibkarların fəaliyyətini stimullaşdırmaq, onlara daha səmərəli vergi rejimi ilə işləməyə şərait yaratmaqdır. Vergi Məcəlləsinə edilmiş dəyişikliklər əsasən, sadələşdirilmiş vergitutma metodunu tətbiq etmək hüququ olan şəxslərin dairəsi məhdudlaşdırılıb. Bərabər və ədalətli vergitutma prinsiplərini tətbiq etmək məqsədilə sadələşdirilmiş vergi ödəyicisi ola biləcək şəxslərin təsnifatı konkretləşdirilib, fəaliyyət növlərinin siyahısı müəyyənləşdirilib.

### Kimlər sadələşdirilmiş vergi ödəyicisi olmayacaq?

2019-cu il yanvarın 1-dən sadələşdirilmiş vergi ödəyicilərinin əhatəsi məhdudlaşdırılacaq. İşçilərinin sayı qanunla müəyyən edilən həddən çox olan istehsal fəaliyyətini, topdansatış ticarət fəaliyyəti qaydasında malların təqdim edilməsini, qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının satışını, xəz-dəri məmulatlarının satışını həyata keçirən şəxslərin, habelə lisenziya tələb olunan fəaliyyət növü ilə məşğul olan şəxslərin (bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər istisna olmaqla) sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ yoxdur. Qanunla sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ məhdudlaşdırılan vergi ödəyiciləri növbəti ildən mənfəət (gəlir) vergisinin ödəyicisi kimi fəaliyyət göstərəcəklər.

İllik dövriyyəsi 200 min manatdan artıq olan ticarət fəaliyyəti ilə məşğul olanların 6 faizlik sadələşdirilmiş verginin tətbiqi məhdudlaşdırılır və onlar ƏDV və gəlir vergisi ödəyicisi kimi fəaliyyət göstərəcəklər. Kafe, restoran və klubların da daxil olduğu ictimai iaşə fəaliyyəti üzrə 8 faizlik sadələşdirilmiş vergi dərəcəsi qalacaq.

Dəyişikliyə əsasən, iaşə obyektlərində müştərilərə xidmət göstərən fiziki şəxslər (ofisiant), fərdi qaydada bərbər və dərzi fəaliyyəti ilə məşğul olan şəxslər sabit vergi ödəyicisi olacaqlar.

S.Musayeva bildirib ki, indiyədək sadələşdirilmiş vergi ödəyicisi olan şəxslərin yeni ildən digər tədiyyə növü üzrə vergiyə cəlb edilməsi, gəlir vergisinin ödəyicisi olması onların ödənişlərinin artması demək deyil: «Gəlir vergisinin dərəcəsinin 20 faiz müəyyənləşdirilməsinin sadələşdirilmiş verginin əvvəlki 4 faizlə müqayisə edilməsi düzgün deyildir. Çünki sadələşdirilmiş vergi ümumi dövriyyədən tutulur. Fiziki şəxslərin gəlir, hüquqi şəxslərin isə mənfəət vergisi gəlirlərdən xərclər çıxıldıqdan sonra yerdə qalan vəsaitdir. Hazırkı şərtə əsasən, mənfəət dərəcəsini götürsək, aylıq 10 min manat dövriyyəsi olan şəxslər hazırda 4 faizlə 400 manat vergi ödəyirlər. Gələn il isə onlar şərti olaraq, 20 faiz rentabelli işlədikləri halda, mənfəət və gəlir vergisinə nəzərdə tutulan güzəştlər hesaba alınmaqla, ayda cəmi 83 manat vergi ödəyəcəklər».

İqtisadçı-ekspertlərin fikrincə, bəzi sahələrin, xüsusilə topdansatış ticarətin sadələşdirilmiş vergi ödəyiciləri siyahısından çıxarılması birmənalı şəkildə müsbət qiymətləndirilməlidir. Çünki topdansatış ticarətdə dövriyyənin və vergidən yayınmanın yüksək olması haqda çoxlu faktlar var, onların sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ dayandırılmalı idi.

**ELBRUS**

# Vergi ödəyiciləri üçün daha bir məqsədli güzəşt

## Borca görə silinməsi nəzərdə tutulan vəsait yekun qərar çıxarılanadək depozit şəklində sahibkarın öz hesabında saxlanılacaq

Azərbaycanda həyata keçirilən islahatların prioritetləri arasında sahibkarlığın inkişafının dəstəklənməsi və vergi sistemində apelyasiya institutunun səmərəliliyinin artırılması xüsusi yer tutur. Bu məqsədlərə nail olmağın üsul və vasitələrindən biri də vergi ödəyicisinin bank hesabından hər hansı borca görə vəsaitin silinməsinə verilmiş sərəncamın icrası qaydalarının təkmilləşdirilməsidir. Vergi sistemində aparılan islahatlar çərçivəsində bu istiqamətdə də müvafiq addımlar atılır. Vergi Məcəlləsinin 65-ci maddəsinə edilən dəyişikliyə əsasən, vergi ödəyicisinin bank hesabından hər hansı borca görə vəsaitin silinməsinə verilmiş sərəncamın icrası ödəyicinin müvafiq icra hakimiyyəti orqanına, yəni Vergilər Nazirliyinə 30 təqvim günü müddətində inzibati qaydada şikayət verdiyi halda dayandırılır.

Əvvəllər Vergi Məcəlləsinə və vergi borclarının alınmasına dair qaydalara əsasən, vergi ödəyicisi bildirişi aldıqdan 30 təqvim günü ərzində məhkəməyə müraciət etdiyi halda, onun bank hesabındakı vəsaitlərinə qoyulmuş sərəncamın icrası dayandırılırdı. İndiki halda isə vergi ödəyicisi Vergilər Nazirliyinə inzibati qaydada şikayət verdiyi halda da sərəncamın icrası dayandırılacaq və bu şikayət üzrə qəbul edilmiş qərara uyğun olaraq müraciət təmin ediləcək. Bunun nəticəsində vergi ödəyicisinin məhkəməyə müraciət etməsinə lüzum qalmır, onun inzibati qaydada şikayəti bank hesabından pul vəsaitinin silinməməsi üçün yetərli olur.

Dəyişikliyin məqsədi sahibkarların hüquqlarının genişləndirilməsi, vergi qərarlarının inzibati qaydada mübahisələndirilməsi zamanı sahibkarın pul vəsaitlərinin toxunulmazlığının təmin edilməsi, apelyasiya institutunun səmərəliliyinin artırılmasıdır. Bu dəyişiklik nəticəsində vergi ödəyicisi əlavə hüquq əldə etmiş olur. Dəyişiklik bütün vergi ödəyicilərinə ünvanlanıb. Dəyişiklik müddət məhdudiyyəti nəzərdə tutmadığından, təsirləri uzunmüddətli qiymətləndirilə bilər.

### Sahibkarlara əlavə hüquqi üstünlük verilib

Ekspertlər gələn ilin yanvarından tətbiq ediləcəyi gözlənilən bu dəyişikliyi vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi istiqamətində atılan mühüm addım kimi dəyərləndirirlər. Milli Məclisin deputatı Vahid Əhmədov «Vergilər» qəzetinə açıqlamasında bildirib ki, Vergi Məcəlləsinə edilən dəyişikliklərə əsasən, vergi ödəyicisinin bank hesabından hər hansı borca görə pulun silinməsinə verilmiş sərəncamın icra müddətinin 5 iş günündən 30 iş gününədək uzadılması hər şeydən əvvəl sahibkarın maraqlarına xidmət edir: «Əvvəlki qaydalar sahibkarlar üçün xeyli çətinliklər yaradırdı. Çünki belə mübahisələr zamanı sahibkarın inzibati qaydada şikayət edə bilməsi üçün cəmi 5 günlük möhləti vardı. Bu müddət başa çatanadək sahibkar aidiyyəti üzrə şikayət etməsə, Vergilər Nazirliyi birtərəfli qaydada həmin vəsaitin silinməsini həyata keçirə bilərdi. İndi isə belə mübahisələrin həlli üçün sahibkarlara əlavə hüquqi üstünlük verilib. Yəni Məcəlləyə edilən dəyişikliklə əlaqədar vergi ödəyicisi ilə borc mübahisəsi olduğu halda Vergilər Nazirliyi birtərəfli qaydada sahibkarın bank hesablarındakı vəsaitin silinməsini həyata keçirə bilməyəcək. Çünki sahibkar özü haqqında çıxarılmış qərarla razı olmadığı təqdirdə inzibati qaydada müraciət edərək ya Vergilər Nazirliyi vasitəsilə, ya da məhkəmə yolu ilə onu bərpa edə bilər. Borca görə silinməsi nəzərdə tutulan vəsait yekun qərar çıxarılanadək depozit şəklində sahibkarın öz hesabında dondurulacaq və tərəflərdən heç biri ona sərəncam vermək hüququna malik olmayacaq. Bu isə sahibkarın həmin vəsait üzərində sərəncam vermək hüquqlarını bərpa etmək imkanlarının genişlənməsi deməkdir».

> Sahibkarın borca görə bank hesabından vəsaitin silinməsinə verilmiş sərəncamın icra müddəti 5 iş günündən 30 iş gününədək uzadılıb

### «Dəyişiklik birmənalı olaraq vergi ödəyicilərinin xeyrinədir»

Azərbaycan Vəkillər Kollegiyasının üzvü, vergi məsələləri üzrə ekspert Sirac Piriyev bu dəyişikliyi birmənalı olaraq vergi ödəyicilərinin xeyrinə atılan addım kimi qiymətləndirib. Qeyd edib ki, mövcud qanunvericiliklə Vergi Məcəlləsinin 65.1-ci maddəsinə uyğun olaraq vergi borcunun ödənilməsi barədə təqdim edilən borc bildirişinin vergi ödəyicisi tərəfindən alındığı tarixdən 30 gün ərzində yalnız məhkəməyə şikayət verildiyi halda vergi orqanları vergi ödəyicisinin milli və ya xarici valyutada olan cari və ya digər hesablarından dövlət büdcəsinə alınması üçün kredit təşkilatlarına və ya bank əməliyyatları aparan şəxslərə icra sənədi (sərəncam) vermirdi: «Lakin məhkəmə çəkişmələri uzun vaxt apardığına və əlavə maliyyə itkilərinə səbəb olduğuna görə bir çox vergi ödəyiciləri mübahisəli vergi borclarını ilk növbədə yuxarı vergi orqanına müraciət etməklə həll etməyi daha məqsədəuyğun hesab edirlər. Belə olan halda hesablamanın mahiyyətindən asılı olmayaraq, vergi orqanları vergi ödəyicisinin milli və ya xarici valyutada olan cari və ya digər hesablarından dövlət büdcəsinə alınması üçün kredit təşkilatlarına və ya bank əməliyyatları aparan şəxslərə icra sənədi (sərəncam) göndərir və pul vəsaitləri həmin vergi borclarının ödənilməsinə yönəldilir. Sonradan vergi ödəyicisinin inzibati şikayəti üzrə yuxarı vergi orqanında onun xeyrinə qəbul edilən qərar, yəni hesablama qərarının ləğv edilməsi vəziyyəti vergi ödəyicisinin xeyrinə tam aradan qaldırmırdı. Bank və depozit hesablarından büdcəyə silinən vəsaitlər yuxarı vergi orqanının hesablama qərarının ləğvi barədə qərarı icra olunduğu zaman şəxsi hesab vərəqəsində artıq ödəmə şəklində əksini tapır ki, vergi ödəyicisi həmin vəsaitləri vergilərdən başqa digər öhdəliklərinin yerinə yetirilməsi üçün istifadə edə bilmir. Vergi ödəyicisinin sərəncamında olan pul vəsaitləri yalnız onun gələcək vergi öhdəlikləri ilə əvəzləşir ki, bu da inzibati şikayətin təmin olunduğu hallarda şəxsin öz mülkiyyəti (pul vəsaitləri) barədə sərbəst sərəncam vermək hüququnu məhdudlaşdırır».

Vəkil hesab edir ki, Vergi Məcəlləsinə edilən dəyişikliklə belə halların qarşısı alınacaq: məhkəməyə verilən ərizə ilə yanaşı, yuxarı vergi orqanına da edilən inzibati şikayət zamanı qəbul olunan qərara uyğun olaraq sərəncamların tətbiqi məsələsi həll ediləcək.

Məcəlləyə edilən bu dəyişiklik sahibkarların hüquqlarının genişləndirilməsini nəzərdə tutduğundan, işgüzar dairələr tərəfindən pozitiv qəbul olunacağı gözlənilir. Əvvəlki praktikada bank hesablarından pul vəsaitlərinin silinməsinin qarşısının alınması üçün vergi ödəyicilərinin məhkəmələrə müraciət etməsi hallarının çoxluğu müşahidə edilirdi. Dəyişiklik məhkəmədə vergi orqanlarına qarşı qaldırılan inzibati işlərin və lüzumsuz məhkəmə mübahisələndirmələrinin sayının azalmasına da şərait yaradacaq, şikayətlərə daha operativ reaksiya verilməsinə imkan verəcək.

Mütəxəssislərin fikrincə, ümumilikdə bu dəyişiklik həm sahibkarların, həm də vergi orqanlarının maraqlarına uyğundur: borc mübahisələrinə görə sahibkarın bank hesablarındakı vəsaitlərin bir ay ərzində dondurulması inzibati şikayətlərə vaxtında baxılması və problemin aradan qaldırılması üçün geniş imkanlar yaradır.

**Elxan SALAHOV**

# «Kölgə iqtisadiyyatı»na qarşı mübarizə: şəffaflıq ən düzgün yoldur

Dekabrın 14-də «Vergilər» qəzetinin təşkilatçılığı ilə «Kölgə iqtisadiyyatına qarşı mübarizə: şəffaflıq ən düzgün yoldur» mövzusunda «dəyirmi masa» keçirilmişdir. Müzakirədə Vergilər Nazirliyinin Vergi siyasəti departamentinin baş direktor müavini Şamil Ərəbov, nazirliyin Dövlət qeydiyyatı və uçota nəzarət departamentinin baş direktor müavini İbrahim Sadıqov, Makroiqtisadi təhlil və vergi islahatları şöbəsinin əməkdaşı Yunis Quliyev, Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin Tənzimləmə və təşviq departamenti müdirinin müavini İlqar Əsgərov, Vətəndaşların Hüquqlarının Qorunması və Əmək Liqası İctimai Birliyinin sədri Sahib Məmmədov, «Sosial hüquqların araşdırılması» İctimai Birliyinin sədri Mais Əliyev, «Professional mühasib» jurnalının baş redaktoru, müstəqil auditor Mehdi Babayev iştirak etmişdir.

Tədbiri giriş sözü ilə açan «Vergilər» qəzetinin baş redaktoru Anar Əliyev bildirmişdir ki, Azərbaycanda «kölgə iqtisadiyyatı» ilə təsirli mübarizə tədbirləri və şəffaflığın təmin edilməsi dövlətin həyata keçirdiyi siyasətin mühüm prioritetlərindəndir və vergi islahatlarının başlıca məqsədlərindən biri də bu problemin həllini əhatə edir. Müasir iqtisadi çağırışlar şəraitində ölkəmizdə «kölgə iqtisadiyyatı»nın təsirlərinin azaldılması ilə bağlı sistemli və kompleks tədbirlər həyata keçirilir.

### Vergi islahatlarının əsas hədəflərindən biri kölgə iqtisadiyyatının qarşısının alınmasıdır

Vergilər Nazirliyinin Vergi Siyasəti Departamentinin baş direktor müavini Şamil Ərəbov diqqəti hazırkı dəyişikliklərin daha çox vergi yükünün aşağı salınmasına hesablandığına yönəldərək qeyd edib ki, dəyişikliklərin təxminən 90 faizi güzəşt və azadolmalarla bağlıdır. Vergi orqanlarının tutduğu mövqe bundan ibarətdir ki, ödəyicilərin üzərinə çox gedilməsin, onlarla təmas azaldılsın, əlaqələr qarşılıqlı əməkdaşlıq səviyyəsində olsun.



«Kölgə iqtisadiyyatı»na qarşı mübarizədə Vergilər Nazirliyinin ortaya qoyduğu iradəni və atdığı addımları dəstəkləmək lazımdır

Qeyd edilib ki, vergi orqanları «kölgə iqtisadiyyatı»nın səviyyəsinin azaldılmasını, şəffaflığın və hesabatlılığın təmin edilməsini özünün başlıca məqsədləri hesab edir və bunlar islahatların əsas tərkib hissəsidir. Bu məsələdə sahibkarların üzərinə də böyük məsuliyyət düşür.

Bəzi sahibkarlar hələ də uçotsuz fəaliyyət göstərir, real dövriyyələrini gizlədir və vergidən yayınırlar, işçilərlə əmək müqaviləsi bağlamırlar. «Kölgə iqtisadiyyatı» çox geniş mövzudur və təkcə vergi sektorunda aparılan islahatlarla bu problemi həll etmək mümkün deyil: «Elə «kölgə» əməliyyatları var ki, onların qarşısını vergi orqanları təkbaşına ala bilməz. Ancaq bizim məqsədimiz və apardığımız siyasət ondan ibarətdir ki, iqtisadiyyatda hər hansı əməliyyat aparılırsa, əlavə dəyər yaranırsa, onun vergisi ödənilsin. Yəni yaranan hər bir vergitutma obyektinin vergisi ödənilməlidir. Məcəlləyə edilmiş dəyişiklikdə vergidən azad olunan gəlir və xərclərinin uçotunun aparılması, vergi bəyannamələrinin təqdim olunması ilə bağlı maddə yer alıb ki, bu da «kölgə iqtisadiyyatı»nın qarşısının alınmasına hesablanıb.

Məsələn, kənd təsərrüfatı məhsullarının istehsalçıları 1999-cu ildən vergilərdən azaddır. Ancaq onlar indiyə qədər vergi orqanlarına normal qaydada gəlir və xərcləri barədə hesabat təqdim etməyiblər. Onlar belə bir arqumentlə çıxış edirlər ki, vergidən azad olunublar və uçota durmağa, hesabat təqdim etməyə ehtiyac yoxdur. Araşdırmalar göstərir ki, vergi güzəştlərinin tətbiqi kənd təsərrüfatı məhsullarının istehsalının artmasına, daha münbit investisiya mühitinin yaradılmasına, rəqabətədavamlı ixrac potensialının artırılmasına müsbət təsir etməklə yanaşı, bu sahədə fəaliyyət göstərən vergi ödəyicilərində vergi intizamının aşağı düşməsinə səbəb olub. Kənd təsərrüfatı məhsullarının istehsalçıları tərəfindən gəlirlərin və xərclərin uçotu lazımi qaydada aparılmır, ilkin sənədlər, o cümlədən malların alışını və satışını təsdiq edən qaimə-fakturalar, təhvil aktları tərtib edilmir, vergi orqanlarına bəyannamələr ya təqdim edilmir ya da təhrif olunaraq təqdim edilir. Kənd təsərrüfatı məhsullarının istehlakına dair strateji yol xəritələrində qarşıya qoyulmuş əsas vəzifələrdən biri uçot məsələsinin təşkilidir. «Kölgə iqtisadiyyatı»nın qarşısının alınmasında əsas istiqamətlərdən biri mühasibat uçotunun və hesabatlılığın təmin edilməsidir».

### Regionlarda uçot işinin qurulmasına bələdiyyələr məsuliyyət daşıyır

Vergilər Nazirliyinin Dövlət qeydiyyatı və uçota nəzarət departamentinin baş direktor müavini İbrahim Sadıqov bildirib ki, ailə-kəndli fermer təsərrüfatlarında uçot-hesabatlılığın aparılması üçün yerli bələdiyyə orqanlarının da üzərinə məsuliyyət düşür. Bələdiyyələr fəaliyyətində dönüş yaratmalıdırlar, çünki kənd yerlərində ailə-kəndli təsərrüfatlarını uçota onlar almalıdır. Bələdiyyələrin əksəriyyətinin bu məsələdən xəbəri yoxdur. Hazırda Vergilər Nazirliyi tərəfindən regionlarda uçot-qeydiyyat məsələlərinin tənzimlənməsi, bələdiyyələrlə birgə yeni vergi münasibətləri ilə bağlı bir sıra məsələlərin izahı, əhaliyə çatdırılması istiqamətində işlər görülür.

Qeyd olunub ki, bələdiyyə torpaqlarının Əmlak Məsələləri Dövlət Komitəsinin reyestrinə daxil olması ilə bağlı qanunvericilikdə dəyişikliklər edilib, bələdiyyələrə öz ərazilərindəki torpaq ehtiyatları və ondan istifadə üzrə bütün zəruri məlumatları həmin reyestrə daxil etmək tapşırığı verilib. Onların təqdim etdiyi zəruri məlumatlarla vergi orqanları da elektron bazanın köməyi ilə tanış ola biləcək. Bu isə torpaq mülkiyyətçiləri barədə məlumatların əldə edilməsinə imkan verəcək.

İ.Sadıqov onu da qeyd edib ki, vergi uçotuna durmayan fiziki şəxslərin əmək münasibətlərinə cəlb olunması məqsədilə Vergi Məcəlləsinə dəyişikliklər edilib. Dəyişikliyə əsasən, həmin şəxslər sabit vergiyə cəlb olunacaqlar və heç bir bəyannamə təqdim etmədən sadəcə vergi orqanına qəbz təqdim edəcəklər. Bu yenilik həmin sahələrdə uçot sisteminin qurulmasına imkan verəcək, «kölgə iqtisadiyyatı»nın geniş yayıldığı sahənin şəffaflaşmasına imkan verəcək. Sabit vergi həm də stimullaşdırıcı xarakter daşıyır, bu mexanizm digər şəxslərin, xüsusilə də müxtəlif fərdi işlər görən şəxslərin də vergi ödəmə mədəniyyətinin formalaşmasına şərait yaradacaq.

> “Hazırda əmək bazarında yeni münasibətlərin tənzimlənməsini nəzərdə tutan stimullaşdırıcı addımlar atılır, yeni dəyişikliklər motivasiya xarakterli olmaqla işəgötürənlərin işçi ilə əmək müqaviləsi bağlamasını həvəsləndirir

### Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin meyarları müəyyən edilib

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) Tənzimləmə və təşviq departamenti müdirinin müavini İlqar Əsgərov qeyd edib ki, qurum tərəfindən kiçik və orta sahibkarlıq subyektlərində yeni idarəetmə modelləri yaradılır, qanunvericilik aktları təkmilləşdirilir. Yeni idarəetmə modellərinə əsasən, Masallı, Quba, Qusar, Xaçmaz, Siyəzəndə kiçik və orta biznes (KOB) evləri yaradılır. Həmin evlərdə sahibkarlara 34 dövlət qurumunun, eləcə də Vergilər Nazirliyinin 110-a yaxın elektron xidməti göstəriləcək.

İ.Əsgərov KOBİA ilə Vergilər Nazirliyi arasında sıx əməkdaşlığın qurulduğunu, kiçik və orta biznesin problemlərinin həllində birgə əməkdaşlığın mühüm rol oynadığını xatırladıb. «Kiçik və orta sahibkarlığın inkişafı haqqında» Qanunun hazırlanmasında vergi orqanının təkliflərinə də yer verilib.

İ.Əsgərov Vergi Məcəlləsinə edilmiş dəyişikliklərdə KOB-a bir sıra güzəştlər verildiyini vurğulayaraq qeyd edib ki, həmin dəyişikliklərə əsasən, kiçik sahibkarlıq subyektlərinin balansında olan əsas vəsaitlər üzrə sürətli amortizasiyanın tətbiqi, kiçik sahibkarlıq subyektinin təsisçisinin divident gəlirlərinin vergidən azad olunması bu sahəyə dövlət dəstəyinin təzahürüdür. Kiçik və orta sahibkarlıqla məşğul olan biznes subyektləri sənaye klasterləri yaratdığı və klaster şirkətlərinin reyestrinə daxil edildiyi təqdirdə 7 il müddətinə ƏDV-dən, innovasiya fəaliyyəti üzrə startaplar 3 il müddətinə gəlir və mənfəət vergisindən azad olunub.

Qeyd edilib ki, KOB subyektləri dövlətin verdiyi güzəşt və imtiyazlardan faydalanaraq öz fəaliyyətlərini şəffaf qurmalı, hesabatlarını və uçot sistemlərini düzgün əks etdirməlidirlər. Bu, həmin sahədə kölgə iqtisadiyyatının təzahürlərinin aradan qaldırılması üçün vacibdir. Nazirlər Kabinetinin təsdiq etdiyi «Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları» sahibkarlıq subyektlərinin hər birinin konkret öhdəliklərini müəyyənləşdirir. Qərara əsasən, işçi sayı 1-dən 10-a, illik gəlirləri 200 min manatadək olanlar mikro, işçi sayı 11-dən 50-dək, illik gəlirləri 200 min manatdan 3 milyon manatadək olanlar kiçik sahibkarlıq, işçi sayı 51-dən 200-dək, illik gəlirləri 3 milyondan 30 milyon manatadək olanlar orta sahibkarlıq, işçi sayı 251-dən yuxarı, illik gəlirləri 30 milyon manatdan yuxarı olanlar isə iri subyektlər hesab olunur.

### Dövlət Sosial Müdafiə Fondu vergi yayındırılmasından ildə 1,5 milyard vəsait itirir

Vətəndaşların Hüquqlarının Qorunması və Əmək Liqası İctimai Birliyinin sədri Sahib Məmmədov gizli iqtisadiyyata rəvac verən amillərdən biri kimi mülki-hüquqi müqavilələrdən bəhs edərək bildirib ki, həmin müqavilə forması qanuni şəkildə vergidən yayınmağa şərait yaradır. Məsələn, müxtəlif idarə və təşkilatlarda çalışan sürücülər faktiki həmin müəssisənin işçisidir, onunla əmək müqaviləsi deyil, mülki-hüquqi müqavilə bağlanılır, onlar faktiki olaraq vergi ödəyicisi hesab edilmirlər. Nəticədə il ərzində yüz milyonlarla vergi və sosial ödənişlər dövlət büdcəsindən kənarda qalır. Hesablamalara görə, təkcə Dövlət Sosial Müdafiə Fondu verginin yayındırılmasından il ərzində 1,5 milyard manat vəsait itirir.

S.Məmmədov qeyd edib ki, əmək bazarında göstərilən xidmətlərin və işlərin meyarları müəyyən edilməlidir: «Hansı işin muzdlu iş sayıldığı aydın olmalıdır. Məsələn, vergi uçotunda olmayan fiziki şəxslərin böyük qismi müxtəlif yerlərdə fəhlə bazarlarında toplaşaraq öz əməklərini satışa çıxarırlar. Əslində, həmin şəxslər də «kölgə iqtisadiyyatı»nın nümayəndələridir, onları qeyri-leqal əmək bazarından asanlıqla çıxarmaq mümkündür. Vaxtilə məşğulluq mərkəzləri nəzdində birdəfəlik işlər üçün hansısa təşəbbüslər oldu, amma yanaşma düzgün olmadığından bu mexanizm işləmədi. Dövlət həmin şəxslər üçün qanuni şəkildə yarmarka tipli müvafiq yerlər təşkil etməlidir. Öz əməyini təşkil edən vətəndaşlar aylıq patent ödəyərək faktiki olaraq qeydə alına bilərlər».

S.Məmmədov bildirib ki, hazırda əmək bazarında yeni münasibətlərin tənzimlənməsini nəzərdə tutan stimullaşdırıcı addımlar atılır, vergi və sosial sığorta qanunvericiliyinə edilmiş yeni dəyişikliklər motivasiya xarakterli olmaqla işəgötürənlərin işçi ilə əmək müqaviləsi bağlamasını həvəsləndirir. Ancaq bununla yanaşı, Vergilər Nazirliyinə, eləcə də Dövlət Əmək Müfəttişliyinə əmək bazarında sərt nəzarətlə bağlı əlavə səlahiyyətlər verilməlidir, sanksiyalar və cəzalar artırılmalıdır. Hər iki dövlət qurumu öz fəaliyyətlərini güclü koordinasiya əsasında qurmaqla qeyri-rəsmi məşğulluq problemini asan yolla tənzimləyə bilər.

### Aqrar sektor gizli iqtisadiyyatın rast gəlindiyi əsas sahələrdəndir

«Professional mühasib» jurnalının baş redaktoru, müstəqil auditor Mehdi Babayev bildirib ki, bu gün cəmiyyəti aktiv vergi ödəyiciləri və sadə vətəndaşlar qrupuna ayıra bilərik. Adi vətəndaşlar passiv olduğundan onları «kölgə iqtisadiyyatı»nın iştirakçısı hesab etmək düzgün olmaz. «Kölgə iqtisadiyyatı»nın birbaşa iştirakçıları həmin aktiv sahibkarlıq subyektlərinin müəyyən bir hissəsi olacaqdır.

Qeyd edilib ki, «kölgə iqtisadiyyatı» bu gün bütün ölkələrdə rast gəlinən problemlərdəndir. Yəni qeyri-rəsmi iqtisadiyyat adlandırılan bu sahə dövlət nəzarətindən və uçotundan kənarda qalır. Təəssüf ki, bəzən həmin sahəni bütünlüklə şəffaflaşdırmaq çox çətin olur. Ancaq elə sahələr vardır ki, onları dövlətdən və cəmiyyətdən gizlətmək mümkün deyil. Məsələn, ev təsərrüfatları və ya icma təsərrüfatları. Bu gün ölkəmizdə aqrar sahənin böyük bir hissəsi, demək olar ki, kölgə iqtisadiyyatının təsirindədir. Azərbaycanda 2018-ci ilin ötən aylarında pambıqçılıqda 190 min yeni iş yeri yaradılıb. Ancaq bu sektorda işləyənlərin heç birinin əmək müqaviləsi yoxdur. Bunun özü «kölgə iqtisadiyyatı»nın bir formasıdır. Ümumiyyətlə, aqrar sektor «kölgə iqtisadiyyatı»nın yayıldığı ən geniş sahələrdən biridir. Fermerlər yalnız rəsmi şəkildə işə cəlb etdikləri işçilərin əməkhaqqına görə muzdlu işlə əlaqədar gəlir vergisinin və ödəmə mənbəyindən gəlirlərin vergisinin uçotunu aparırlar. Bu isə fermerin vergi-maliyyə göstəriciləri haqqında müfəssəl məlumat almağa imkan vermir. Bölgələr üzrə əkilmiş və becərilməkdə olan ayrı-ayrı kənd təsərrüfatı məhsullarının uçotu dəqiq aparılmadığına görə düzgün informasiya əldə etmək imkanları da zəifdir. Ona görə də regionlarda yerli icra orqanları və bələdiyyələrin uçot-məlumat işinin təşkilində müxtəlif dövlət qurumları ilə fəaliyyəti uzlaşdırılmalıdır.

Mehdi Babayev bildirib ki, «kölgə iqtisadiyyatı»na qarşı mübarizədə Vergilər Nazirliyinin ortaya qoyduğu iradəni və şəffaflığın təmin olunması istiqamətində atdığı müxtəlif stimullaşdırıcı addımları yüksək dəyərləndirmək lazımdır.

### Rəqəmsal texnologiyaların genişlənməsi «kölgə iqtisadiyyatı»nı azaldacaq

«Sosial hüquqların araşdırılması» İctimai Birliyinin sədri Mais Əliyev bildirib ki, beynəlxalq təcrübədə gizli iqtisadiyyat və ya «kölgə iqtisadiyyatı» anlayışı əsas etibarilə qeyri-qanuni fəaliyyət, ev təsərrüfatlarının öz şəxsi istehlakı üçün istehsal etdiyi mallar və qeyri-formal fəaliyyət kimi sahələri ifadə edir. Müxtəlif ölkələrdə həmin sahələrdəki nisbətə uyğun olaraq «kölgə iqtisadiyyatı»nın da payı fərqlidir. Məsələn, elə ölkələr var ki, daha çox inkişaf edib, iqtisadiyyatının həcmi xeyli böyükdür, ancaq orada qeyri-qanuni fəaliyyət az olduğuna görə gizli iqtisadiyyatın çəkisi də azdır. Elə ölkələr də var ki, onların iqtisadiyyatının həcmi nisbətən aşağıdır, ancaq dövriyyədən kənarda qalan real iqtisadi mənbələr ucbatından həmin ölkələrdə «kölgə iqtisadiyyatı»nın payı yüksəkdir. Hazırkı vəziyyətdə Azərbaycanın dövlət sektorunda şəffaflıq daha çox təmin olunub. Qeyri-dövlət bölməsində isə gizli iqtisadiyyatla bağlı problemlər daha çoxdur. Gizli iqtisadiyyatın daha çox yayılması uçotdan biləkdən gizlədilən istehsal, mal, xidmət və digər əməliyyatlarda özünü büruzə verir. Xüsusilə də ticarət və xidmətlər sahəsində, daşınmaz əmlak, tikinti, inşaat materiallarının satışında həmin problemlərə daha çox rast gəlinir.

Mais Əliyev bildirib ki, gizli iqtisadiyyatın leqallaşdırılmasında informasiya texnologiyalarının tətbiqinin və elektron dövlət quruculuğunun mühüm əhəmiyyəti vardır. Dövlət və özəl sektorda ən müasir rəqəmsal texnologiyaların tətbiqi genişləndikcə, hər bir sahədə bütün əməliyyatlar elektronlaşdıqca və insan faktorunun rolu azaldıqca kölgə iqtisadiyyatı da tədricən azalmağa başlayacaq. Hazırda mobil və rəqəmsal idarəetmənin rolunun artması, özəl sektorla dövlət orqanlarının təmaslarının minimuma endirilməsi bu istiqamətdə yaxşı nəticələrə çatmağa imkan verir. Vergilər Nazirliyi tərəfindən yeni texnologiyaların iqtisadiyyata gətirilməsi və tətbiqi də müzakirə etdiyimiz problemlərin aradan qaldırılmasına mühüm fayda verəcək. Çünki vergi sistemi elə qurulmaqdadır ki, sahibkarda, yaxud adi vətəndaşda qanunsuz fəaliyyətdən uzaqlaşmağa, «kölgə»dən çıxaraq şəffaf, rəsmi şəkildə fəaliyyət göstərməyə həvəs, stimul yaransın. Azərbaycanda sahibkarlara geniş fəaliyyət meydanı yaradılır, yoxlamalar, demək olar ki, aparılmır, digər inzibati vasitələr aradan qalxır, belə bir vəziyyətdə «qaranlıqda gizlənməyə» heç bir səbəb yoxdur.



Elə «kölgə» əməliyyatları var ki, onların qarşısını vergi orqanları təkbaşına ala bilməz

### Cəmiyyətdə vergi, mühasibat, uçot məsələlərinə diqqət artıb

«Dəyirmi masa» müzakirələri zamanı vurğulanıb ki, qeyri-rəsmi əmək bazarının leqallaşdırılması ilə bağlı tədbirlər birbaşa səbəblərin həllinə yönəldilməlidir. Sahib Məmmədov tikinti sektorunda «kölgə iqtisadiyyatı»nın payının yüksək olduğunu vurğulayaraq bildirib ki, iki il bundan əvvəl tikinti obyektlərinə müşahidə kameralarının quraşdırılması təklif edilsə də, ancaq hələ də kameralar quraşdırılmayıb. Onun sözlərinə görə, hazırda tikintidə paylı iştirak haqqında qanunun qəbuluna ehtiyac vardır. Bu, tikintidə əmək münasibətlərinin tənzimlənməsində, eləcə də vergidən yayınmanın qarşısının alınmasında mühüm rol oynaya bilər. Bundan əlavə, məşğulluq və işsizlikdən sığorta haqqında qanunlarda boşluqların olduğu və həmin məsələlərin nəzərə alınmasının vacibliyi də diqqətə çatdırılıb.

Mehdi Babayev ciddi-hesabat blanklarının aradan qaldırılmasına ehtiyac olduğunu, həmin blankları vergi ödəyicilərinin 2-3 faizinin tətbiq etdiyini vurğulayıb. Hazırda mobil ödənişlər vüsət almağa başlayıb, bu vəziyyətdə hesabat blankaları öz əhəmiyyətini itirir. Ödəyicilər bu sənədləri öz aralarında, daxili əməliyyatlarda istifadə etsələr, daha yaxşı olardı. Elə şirkət var ki, gün ərzində 300-400 əməliyyat edir, bu yolla onun hesabat blankları təqdim etməsi xərclərin uçotunu tərtib etməsinə çətinlik yaradır.

Müzakirələrdə sosial sığorta sahəsində tələb olunan hesabatların mürəkkəbliyi və sahibkarların bununla bağlı çətinliklərlə üzləşdiyi qeyd olunub.

Bildirilib ki, həmin hesabat verilərkən gücləndirilmiş imza tələb olunur, sahibkarların 90 faizi isə bunu bacarmır, bu sahədə daha asan və rahat mexanizm qurulmalıdır. Müzakirələrdə qeyd edilib ki, cəmiyyətdə vergi, mühasibat, uçot məsələlərinə diqqət artıb, insanlarda bu mövzu ilə bağlı suallar çoxalıb - bu, yaxşı haldır, yəni cəmiyyət artıq uçot və şəffaflığın nə olması, necə qurulması ilə daha çox maraqlanır. Bu sahədə maarifləndirmə və təşviqetmə işlərini daha da artırmaq lazımdır.

*Hazırladı:*
**Elbrus CƏFƏRLİ**

# Elektron qaimə-faktura verməli olan şəxslərin əhatəsi dəqiqləşdirilib

2017-ci il aprelin 1-dən əlavə dəyər vergisinin, eləcə də 6 faiz və 8 faiz dərəcə ilə sadələşdirilmiş verginin ödəyiciləri, 2018-ci il yanvarın 1-dən isə bütün vergi ödəyiciləri təqdim etdikləri mallara (işlərə, xidmətlərə) görə alıcılara elektron qaydada qaimə-faktura təqdim edirlər. Elektron qaimə-fakturanın tətbiqindən ötən dövr ərzində aparılan təhlillər göstərir ki, bəzi dövlət təşkilatları, yerli özünüidarəetmə orqanları və bankların göstərdikləri iş və xidmətlərə görə təqdim etməli olduqları e-qaimə-fakturaların verilməsi onların iş yükünü çətinləşdirir. Həmin təşkilatlarda aparılan sənədləşmə işlərinin həcmi və miqyası həddindən artıq böyük olduğundan sənədləşmədə müəyyən problemlər yaranır, inzibati yük artır. Bundan əlavə, banklar tərəfindən təqdim olunan maliyyə xidmətlərinin gündəlik sayının həddən çox olması elektron qaimə-fakturaların tərtib edilməsini praktiki cəhətdən çətinləşdirir. Bankların müştərilərə göstərdiyi xidmətlər zamanı aparılan əməliyyatlar zamanı gündəlik əsasda çıxarış verildiyi nəzərə alındıqda isə həmin maliyyə xidmətlərinə görə elektron qaimə-fakturaların verilməsinə ehtiyac yaranmır.

Vergilər Nazirliyinin Vergi siyasəti departamentinin baş direktor müavini Şamil Ərəbovun sözlərinə görə, bu səbəbdən elektron qaimə-fakturaların praktikada tətbiqi zamanı vergi inzibatçılığının yüngülləşdirilməsi baxımından bəzi kateqoriya şəxslərin elektron qaimə-faktura verməli olan şəxslərin siyahısından istisna edilməsi zərurəti yaranıb. Bu məqsədlə Vergi Məcəlləsinə (16.1.11-6.1-ci - 16.1.11-6.3-cü maddələr) elektron qaimə-faktura ilə bağlı bəzi dəyişikliklər edilib. Dəyişikliyə əsasən, vergi ödəyicisinin fəaliyyət xüsusiyyətlərini, əməliyyatların həcmini və dövriyyənin nağdsız formalaşmasını nəzərə alaraq 2019-cu il yanvarın 1-dən aşağıdakı təşkilatların alıcılara elektron qaimə-faktura təqdim etmək öhdəliyi aradan qalxacaq:

- bank əməliyyatlarını həyata keçirən şəxslər tərəfindən müştərilərin hesabları üzrə xidmətlərin göstərilməsi;
- dövlət hakimiyyəti, yerli özünüidarəetmə orqanları və büdcə təşkilatları tərəfindən işlərin və xidmətlərin təqdim edilməsi;
- notariuslar tərəfindən (notariat hərəkətlərinin aparılmasına və notariat hərəkətləri ilə əlaqədar) xidmətlərin göstərilməsi.

Həmin şəxslər tərəfindən göstərdikləri iş və xidmətlərə görə alıcılara qəbz və digər ciddi hesabat blankları təqdim edilir.

**Elbrus CƏFƏRLİ**

# Özəl sektorda çalışanlardan tutulan vergi azaldılır

## Vergi Məcəlləsinə təklif olunan dəyişikliklər işçilərin əməkhaqqı ödənişləri üzrə ciddi yeniliklər vəd edir

Əmək münasibətləri sahəsində şəffaflığın təmin olunması və qeyri-rəsmi məşğulluğun aradan qaldırılması məqsədilə Vergi Məcəlləsinə fiziki şəxslərin muzdlu işlə əlaqədar əldə olunan gəlirlərinə vergi güzəştlərini nəzərdə tutan müddəalar daxil edilib. Dəyişikliyə əsasən, neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid müəssisələrdə çalışan fiziki şəxslərin muzdlu işdən aylıq gəlirləri 8.000 manatadək olduqda vergi tutulmayacaq. Gəlirin məbləği 8.000 manatdan çox olduqda, 8.000 manatdan yuxarı məbləğin 14 faizi miqdarında vergi hesablanacaq. Bu kateqoriyadan olan şəxslərdən verginin güzəştli qaydada tutulması 2019-cu il yanvarın 1-dən 7 il müddətinə qüvvədə olacaq.

Dəyişiklik hər şeydən əvvəl əmək münasibətlərinin rəsmiləşdirilməsinə xidmət edəcək. Çünki bir çox hallarda işəgötürənlər işçilərlə bağlanmış əmək müqavilələrində əməkhaqqını dəfələrlə aşağı məbləğdə rəsmiləşdirir və faktiki olaraq vergidən yayındırılan dövriyyə hesabına işçilərə əlavə (qeyri-rəsmi) əməkhaqqı ödəyirlər. Təhlillərdə belə halların yaranmasının əsas səbəbi kimi işəgötürənin vergi və sosial sığorta yükünün ağırlığı göstərilir. Vergi Məcəlləsinə dəyişikliklər isə işəgötürənlərin bu yükünü əhəmiyyətli şəkildə yüngülləşdirir. Dəyişikliyə əsasən 8.000 manatadək əməkhaqqı alan şəxslərdən gəlir vergisi 0 faiz dərəcə ilə hesablanacaq ki, bu da işəgötürənlərin real əməkhaqqını düzgün bəyan etməsinə şərait yaradacaq.

Bəs bu dəyişikliklərdən sonra özəl sektorda çalışan işçilərin əməkhaqqından tutulan gəlir vergisi üzrə vergi yükünün azalması özünü nədə göstərəcək? Muzdlu işçilər bu dəyişiklikləri əldə etdiyi əməkhaqqının məbləğində hiss edə biləcəklərmi?

Vergi Məcəlləsinin 101.1-ci maddəsinə əsasən, 2500 manatadək olan aylıq gəlirdən 14 faiz gəlir vergisi tutulur. «Sosial sığorta haqqında» Qanunun 14-cü maddəsinə əsasən, əmək müqaviləsi (kontraktı) ilə işləyənlər üçün hesablanmış əməkhaqqının 3 faizi miqdarında məcburi dövlət sosial sığorta haqqının ödənilməsi nəzərdə tutulub. Bundan başqa, əməkhaqqının 0,5 faizi həcmində işsizlikdən sığorta ödənişi hesablanır.

Mövcud qanunvericiliyə görə, əməkhaqqı 2500 manata qədər olduqda, əməkhaqqından ölkə üzrə yaşayış minimumu (173 manat) çıxıldıqdan sonra qalan məbləğdən 14 faiz gəlir vergisi hesablanır. Məsələn, aylıq maaşı 400 manat olan müəllimin əməkhaqqından tutulan gəlir vergisini və yekunda alacağı məvacibi hesablayaq:

Gəlir vergisi - (400-173) = 227 x14% = 31,78 manat.

Sosial sığorta - 400 x 3% = 12 manat.

İşsizliyə görə sığorta haqqı - 400x 0,5% = 2 manat

(400 manat - 31,78 manat -12 manat - 02 manat) = 354,22 manat.

Beləliklə, aylıq maaşı 400 manat olan müəllimin əməkhaqqından vergilər tutulduqdan sonra alacağı məbləğ 354,22 manat olacaq.

Ümumilikdə isə gələn ildən əməkhaqqından tutulan gəlir vergisi və sosial sığorta ödənişləri yeni qaydalarla hesablanacaq. Həm Vergi Məcəlləsinə, həm də «Sosial sığorta haqqında» Qanuna edilən dəyişikliklər işçilərin əməkhaqqından tutulan gəlir vergisi və sosial ayırmalara dair yeni yanaşma nəzərdə tutur. Artıq Milli Məclisdə qəbul edilmiş dəyişikliklərə əsasən, gələn il yanvarın 1-dən əməkhaqqı sistemində ciddi güzəştlər olacaq. Neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən muzdlu işçilər aylıq gəlirləri 8.000 manatadək olduqda gəlir vergisindən tam azad edilir, 8.000 manatdan yuxarı hissədən isə 14 faiz dərəcə ilə gəlir vergisi tutulur. Bundan başqa, mülkiyyət növündən asılı olmayaraq bütün vergi ödəyiciləri üçün muzdla işləyən fiziki şəxslər üzrə gəlir vergisinə cəlb edilməyən məbləğ 173 manatdan 200 manata artırılıb.

«Sosial sığorta haqqında» Qanuna əməkhaqqından hesablanan məcburi dövlət sosial sığorta ayırmaları ilə bağlı təklif edilən dəyişikliklər yuxarıdakı cədvəldə göstərilib.

| № | Gəlirin məbləği | İşçidən hesablanan sosial ayırma | İşəgötürənin hesabladığı sosial ayırma |
|---|---|---|---|
| 1 | 200 manata qədər | 3 faiz | 22 faiz |
| 2 | 200 manatdan yuxarı | 6 manat + 200 manatdan yuxarı 10 faiz | 44 manat + 200 manatdan yuxarı 15 faiz |

Cədvəldən göründüyü kimi, əməkhaqqı fondundan tutulan cəmi sosial ayırma bütün hallarda 25 ((22+3) və ya (10+15)) faiz olacaq. Əməkhaqqından tutulan gəlir vergisi və sosial sığorta ödənişləri ilə bağlı dəyişikliklərin işçilərin əldə etdiyi real gəlirlərinə təsirinin izahını aşağıda verilmiş cədvəldəki misallarla təqdim edirik.

Qeyd edək ki, bu cədvəl 7 il müddətində neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyicilərində muzdla işləyən fiziki şəxslərə aiddir.

**Elxan SALAHOV**

| Əməkhaqqının məbləği | Gəlir vergisi | | | Əməkhaqqıdan sosial sığorta | | | İşsizlikdən sığorta | | | İşçinin əlinə alacağı əməkhaqqı | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Hazırda | 01.01.2019-dan | Fərq | Hazırda | 01.01.2019-dan | Fərq | Hazırda | 01.01.2019-dan | Fərq | Hazırda | 01.01.2019-dan | Fərq |
| 200 | 3.78 ((200-173) x 14%) | 00.00 | 3.78 azalma | 6 AZN (200x3%) | 6 AZN (200x3%) | 0 | 1 (200x0,5) | 1 (200x0,5) | 00.00 | 189.22 AZN (200-3.78-6-1) | 193 AZN (200-6-1) | 3.78 AZN artım |
| 1000 | 115.78 ((1000-173 AZN) x 14%) | 00.00 | 115.78 AZN azalma | 30 AZN (1000x 3%) | 86 AZN (6+(1000-200) x 10% | 56 AZN artım | 5 (1000x0,5) | 5 (1000x0,5) | 00.00 | 849.22 (1000-115.78-30-5) | 909.00 AZN (1000-86-5) | 59.78 AZN artım |
| 3000 | 475 AZN ((350 + ( 3000-2500 AZN) x 25% | 00.00 | 475 AZN azalma | 90 AZN (3000 x3 faiz) | 286 AZN (6+(3000-200) x 10%) | 196 AZN artım | 15 (3000x0,5) | 15 (3000x0,5) | 00.00 | 2420 AZN (3000-475-90-15) | 2699 AZN (3000-286-15) | 279 AZN artım |
| 9000 | 1975 AZN (350+(9000-2500) x 25%) | 140 AZN ((9000-8000) x 14 faiz) | 1835 AZN azalma | 270 AZN (9000 x 3 %) | 886 AZN (6+(9000-200) x 10 faiz) | 616 AZN artım | 45 (9000x0,5) | 45 (9000x0,5) | 00.00 | 6710 AZN (9000-1975-270-45) | 7929 AZN (9000-560-900-45) | 1219 AZN artım |

## 2018-ci ilin dekabr ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli vergilər barədə

### YADDAŞ

**2018-ci ilin noyabr ayına görə vergi ödəyiciləri tərəfindən tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsi,
- Aksiz bəyannaməsi,
- Yol vergisi bəyannaməsi,
- Mədən vergisi bəyannaməsi,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsi

**cari ilin dekabr ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim edilməli və təqdim olunmuş bəyannamələr üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- **Daşınmaz əmlakın** təqdim edilməsi üzrə sadləşdirilmiş verginin bəyannaməsi **cari ilin dekabr ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).
- **Muzdlu işlə əlaqədar** 2018-ci ilin noyabr ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi **cari ilin dekabr ayının 20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir *(ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri bəyannaməni illik - növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri 2018-ci ilin 4-cü rübü üzrə bəyannaməni növbəti ildə yanvar ayının 21-dən gec olmayaraq təqdim etməlidirlər)*.
- **Xüsusi notariusların** 2018-ci ilin noyabr ayı üzrə hesabladıqları gəlir vergisi **cari ilin dekabr ayının 20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir *(2018-ci ilin 4-cü rübü üzrə bəyannamə növbəti ildə yanvar ayının 21-dən gec olmayaraq təqdim edilməlidir)*.

**Qeyd:**
20.01.2019-cu il tarixi qeyri-iş gününə təsadüf etdiyindən, həmin tarixdə təqdim edilməli bəyannamələrin təqdim olunmasının son müddəti 21.01.2019-cu il tarixə keçirilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## Elektron qaimə-fakturanın tətbiqi barədə

### BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

**2018-ci il yanvarın 1-dən** etibarən, statusundan asılı olmayaraq, **bütün vergi ödəyiciləri** tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim olunmalıdır.

Vergi Məcəlləsinə əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim olunması ilə bağlı elektron qaimə-faktura vermək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

«Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura «Onlayn rejimdə» Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən «Asan imza») vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə olunmaqla «Oflayn rejimdə» tərtib edildikdən və elektron imza (o cümlədən «Asan imza») vasitəsilə imzalandıqdan sonra malların, işlərin və xidmətlərin alıcısına göndərilir.

Odur ki, sahibkarlıq fəaliyyəti məqsədləri üçün mal (iş, xidmət) alınarkən həmin malların (işlərin, xidmətlərin) alınmasını təsdiq edən elektron qaimə-faktura satıcıdan tələb edilərək alınmalıdır.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və ya vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

- Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
- Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
- Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
- Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# Almaniyada kilsələr 12,6 milyard avro gəlir əldə edib

Almaniyada «kilsə vergisi»nin ödəyicilərinin sayı azalsa da, kilsələrin əldə etdikləri gəlirlərin məbləği artaraq 12,6 milyard avroya çatıb. Almaniya İqtisadiyyat İnstitutunun araşdırmasına əsasən, ölkədə kilsələrin təxminən 45 milyon üzvü var. Bunlardan 23,5 milyon nəfəri katolik, 21,5 milyon nəfəri isə protestant kilsələrinin üzvləridir.

İnstitutun araşdırmasında ölkədə kilsə gəlirlərinin artmasının məşğulluğun və gəlir səviyyəsinin artması ilə bağlı olduğu vurğulanmışdır. Almaniyada «kilsə vergisi» maliyyə qurumlarının vasitəsilə dövlət tərəfindən toplanaraq kilsələrə təhvil verilir. Katolik kilsənin üzvləri orta hesabla 291 avro, protestant kilsəsinin üzvləri isə orta hesabla 278 avro vergi ödəyiblər. Qeyd edək ki, ölkədə katolik kilsəsinin nəzdində 9 min 370, protestant kilsəsinin nəzdində isə 8 min 800 uşaq bağçası fəaliyyət göstərir.

# İspaniya məhkəməsi Şakiraya qarşı cinayət işi açıb

Son illərdə İspaniya məhkəmələrinin məşhurlara qarşı qaldırdığı və dünyanın diqqət mərkəzində olan məhkəmə işlərinin, demək olar ki, hamısı futbolla əlaqəlidir. Bu dəfə isə məhkəmə iddiasının hədəfində məşhur müğənnidir. Ancaq onun da Kolumbiyadan İspaniyaya gəlişinə futbolçu ilə birgə yaşamağı səbəb olmuşdu.

İspaniyanın Maliyyə Məhkəməsi əslən Kolumbiyadan olan müğənni Şakira haqqında 14,5 milyon avro məbləğində vergi qaçaqlığı iddiası ilə təhqiqata başlamışdır. Şakiraya qarşı irəli sürülmüş iddianamədə onun vergi ödəməmək üçün İspaniyada yaşadığı halda Baham adalarında pasport qeydiyyatına düşdüyü, bununla da 2012-2014-cü illərdə ümumilikdə 6 maliyyə cinayətinə yol verərək vergi kimi ödəməli olduğu 14,5 milyon avro vəsaiti dövlət büdcəsindən gizlətdiyi göstərilir.

İddianaməyə görə, 2012-2014-cü illərdə «Barselona» futbol komandasının oyunçusu Cerard Pike ilə birgə yaşadığına görə İspaniyada olan və burada ev satın alan Şakira öz vergilərini də bu ölkədə ödəməli idi. İspaniya qanunlarına əsasən, altı aydan artıq İspaniyada yaşayan hər bir şəxs vergi ödəmək mükəlləfiyyəti daşıyır. Maliyyə məhkəməsi xəyali şirkət quraraq vergi yayındırdığı iddiası ilə Şakiranın Nyu Yorkdakı vəkili haqqında da cinayət işi qaldırmışdır. Məhkəmə sənədlərində Şakiranı vergi qaçaqlığına təhrik edən vəkili olmuşdur.

41 yaşlı Şakira açıqlama verərək İspaniyada hər hansı qanun pozuntusuna yol vermədiyini, buradakı fəaliyyətini qanunlar çərçivəsində apardığını bildirmişdir.

# 3 milyard avro məbləğində artıq ödənilmiş vergi qaytarılıb

Finlandiyada vergi ödəyicilərinin 2017-ci il üzrə artıq ödədikləri vergilərin özlərinə qaytarılmasına başlanılıb. 3 milyon 600 min vətəndaşa qaytarılacaq vəsaitin ümumi məbləği isə təxminən 3 milyard avro təşkil edir. Ölkənin Dövlət Vergi Xidməti bu xəbəri təsdiqləyərək bildirmişdir ki, 2017-ci ildə vergi ödəyicilərindən artıq toplanılmış vəsaitin məbləği 2 milyard 939 milyon avro təşkil edir.

Vergi xidmətinin açıqladığı statistik məlumatlara əsasən, 2016-cı il üzrə qaytarılmış vəsaitin məbləği 2,6 milyard avro, 2015-ci ildə isə 2,3 milyard avro olmuşdu.

«Nordea» bankının vətəndaşlar arasında apardığı sorğunun nəticələrinə görə, vergi ödəyicilərinin əksəriyyəti onlara geri qaytarılacaq pulları yeni il hədiyyələrinə xərcləməyi planlaşdırırlar. Bir çox ticarət məntəqələrində qaytarılan vergilərin xərclənməsi üçün xüsusi aksiyalar təşkil edilmişdir.

Vergilərin qaytarılması Finlandiya vətəndaşları üçün sürpriz sayılmır. Çox vaxt onlar şüurlu şəkildə bilərəkdən artıq vergi ödəyirlər ki, yeni il ərəfəsində geri ala bilsinlər.

Gözlənilir ki, vətəndaşların gəlirləri və ödədikləri vergilər haqqında məlumat mübadiləsi prosesinin rəqəmsallaşdırılması sayəsində həmin proses sürətləndiriləcək. Məsələn, 2019-cu ildə işçilərin hesablarına əməkhaqqının köçürülməsi barədə məlumatı vergi orqanları real vaxt rejimində əldə edəcəklər. Vergi güzəşti olmayan vətəndaşlar isə qaytarılmış vəsaitləri avqust ayında ala biləcəklər.

# Telefon mesajlarından vergi tutulması məsələsi müzakirə edilir

ABŞ-ın Kaliforniya ştatında telefon istifadəçilərinin göndərdikləri hər mesaja görə vergi qoyulması ilə bağlı təklif geniş müzakirələrin açılmasına səbəb olmuşdur.

Təklif Kaliforniya Dövlət Xidmətləri Komissiyası tərəfindən irəli sürülmüşdür. Komissiya ştatın ərazisində telefondan istifadə etməyə imkanı çatmayacaq dərəcədə kasıb insanların da telefon xidmətindən istifadə edə bilmələrini təmin etmək üçün mənbə yaratmaq məqsədilə telefon mesajlarına əlavə vergi qoyulmasını tələb etmişdir. Müzakirələrə səbəb olan bu təklif komissiya tərəfindən gələn ay səsverməyə təqdim ediləcək.

Kaliforniyada nəşr edilən «The Mercury News» qəzetinin xəbərinə görə, Kaliforniyadakı çoxlu sayda biznes, bələdiyyə və ticarət qurumları bu qərara qarşı çıxaraq belə bir verginin istehlakçılara hər il 44,5 milyon dollar əlavə xərcə başa gələcəyini bildirmişlər.

Telefon mesajlarından nə qədər vergi alınacağı isə hələlik açıqlanmamışdır.

# Avropa Parlamenti Yaponiya ilə ticarət sazişini qəbul edib



Avropa İttifaqı (Aİ) ilə Yaponiya hökuməti arasında bu ilin iyul ayında imzalanmış ticarət sazişi Avropa Parlamentinin Strasburqda toplanmış Baş Assambleyası tərəfindən təsdiq edilmişdir.

Yaponiyanın təsdiq prosesini başa çatdırdığı sazişin dekabrın 21-də Avropa Şurasından da təsdiq alması və gələn il fevral ayının 1-dən qüvvəyə minməsi gözlənilir.

Yaponiyanın Baş naziri Şinzo Abe, Avropa Şurasının sədri Donald Task və Avropa Komissiyasının rəhbəri Jan Klod Yunker iyul ayında Tokioda keçirilmiş Aİ-Yaponiya zirvə görüşü çərçivəsində «İqtisadi tərəfdaşlıq sazişi»ni və «Strateji tərəfdaşlıq sazişi»ni imzalamışdılar.

Qeyd edək ki, Aİ ilə Yaponiya arasında sərbəst ticarət sazişi ilə bağlı müzakirələr dörd il davam etdikdən sonra 2017-ci ilin dekabr ayında başa çatdırılmışdı. Ticarət sazişinin tələblərinə əsasən, şirkətlərin qarşılıqlı olaraq ödədikləri gömrük vergilərinin böyük bir hissəsi ləğv ediləcək. Tərəflər bir-birinin coğrafi «nişanına» aid məhsulların mühafizəsini təmin edəcək.

Kənd təsərrüfatı, maliyyə xidmətləri, elektron ticarət, rabitə və nəqliyyat sahələrində fəaliyyət göstərən şirkətlərin qarşılıqlı bazarlara giriş imkanları genişləndiriləcək.

# Rusiya ixracat sahəsində «nişanlama» mərhələsinə daxil olur

Rusiyanın 2016-cı ildə Türkiyədən idxal edilən kürklər üçün başladığı «nişanlama» 2019-cu ildən ayaqqabı, tekstil, tütün və dərman sektoruna aid məhsullara da şamil ediləcək. Türkiyənin Ticarət Nazirliyindən ixracatçı birliklərə göndərilmiş yazılı məlumatda xatırladılmışdır ki, 2016-cı ilin iyul ayında Rusiyanın kürk məhsulları üçün nişanlama tətbiq etməsi pilot təşəbbüs kimi başladılmışdı.

Nişanlamanın tətbiqi ilə Rusiyada bir il ərzində qanuni şəkildə ixrac edilən kürklərin dəfələrlə artdığı bildirilmişdir. Rusiyada 2015-ci ildə 300 min kürk satıldığı halda, nişanlamanın tətbiqindən sonra - 2017-ci ildə bu rəqəmin 2 milyona çatdığı vurğulanmışdır.

Yazılı məlumatda nişanlamanın tətbiq olunmasında əsas hədəfin Rusiyanın qanuni və keyfiyyətli malları satın ala bilməsi, insan sağlamlığının və istehlakçı hüquqlarının qorunması, «ağ bazarın» böyüməsi, rəqabətliliyin artması, maliyyənin optimallaşması, loqistik zəncir boyunca malların izlənilməsi, «boz bazarın» daraldılması ilə məhsuldarlığın yüksəldilməsi, gömrük və vergi gəlirlərində artımın təmin edilməsi ilə bazara nəzarətin gücləndirilməsi olduğu bildirilmişdir.

Yeni qayda çərçivəsində Rusiyanın idxal etdiyi malların üzərindəki etiketdə malın harada istehsal edildiyi, ölkəyə hansı yollardan gətirildiyi kimi məlumatlar verilir. Üzərində nişan olmayan malların isə ölkəyə gətirilməsinə icazə verilmir.

Türkiyənin Ege əyalətinin Dəri və Dəri Məmulatları İxaracatçıları Birliyinin İdarə Heyətinin sədri Erkan Zandar Türkiyənin bu sektor üzrə ən mühüm bazarlarından birinin Rusiya olduğunu qeyd etmişdir. Onun sözlərinə görə, Rusiya 2024-cü ilə qədər nişanlamanı ixrac olunan bütün mallara tətbiq etmək niyyətindədir: «Nişanlar (etiketlər) məhsulu idxal edəcək Rusiya firması tərəfindən göndəriləcək. Bu etket məhsulun qutusuna və ya üzərinə yapışdırılacaq. Bununla da ölkədən rəsmi qaydada göndərilən məhsullar avtomatik şəkildə qeydiyyatdan keçirilmiş olacaq. Ona görə də nişanlamanın tətbiqi qeydiyyatdankənar ixracatı azaldaraq Türkiyə ixracatının inkişafına müsbət təsir göstərəcək».

Qeyd edək ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə edilmiş dəyişiklik və əlavələrlə də idxal mallarının nişanlanması ilə bağlı müvafiq müddəalar nəzərdə tutulmuşdur.

# Britaniyalılar sərhəd vergisi ödəyəcəklər

Böyük Britaniya referendumun nəticələrinə əsasən Avropa İttifaqından ayrılmaq qərarına gəldikdən sonra britaniyalılar İttifaqa üzv ölkələrin ərazilərinə keçmək üçün 7 avro məbləğində sərhəd yığımı ödəməli olacaqlar, lakin viza tərtib etməyəcəklər.

Artıq bu barədə Avropa Komissiyası öz qərarını vermişdir. Yığım vizasız gediş-gəliş hüququna malik xarici vətəndaşların Avropaya giriş yoxlaması sistemi (ETIAS) çərçivəsində tutulacaq. Sistemini tətbiqinə 2021-ci ildə başlanacağı gözlənilir.

Avropa İttifaqının «Breksit»dən sonra yeni vergi və yığımlar tətbiq etmək haqqında planı bu ilin əvvəlindən məlum idi. Böyük Britaniyanın Avropa İttifaqından çıxmaq tarixi isə gələn il mart ayının 31-ə planlaşdırılmışdır.




## krossvord

**Yuxarıdan aşağı:** 1.Memarlıq termini. Qapı və ya pəncərəni iki yerə bölən üfüqi və ya şaquli hissə; 2.Zərb aləti; 3.Çində etik-siyasi təlim; 4.Səhralarda küləyin təsiri altında sovrulan qum təpəsi; 5.Uilyam Şekspirin məşhur faciəsindən personaj; 6.Zaqatala rayonunda kənd; 9.Sümüklü balıq növü; 13.Zinət əşyalarında istifadə olunan bəzək, daş-qaş (mineral); 15.İngilis yazıçısının soyadı. Daha çox «Alisa möcüzələr ölkəsində» əsəri ilə tanınır; 16.Juzun xanı, Qazaxıstanın azadlıq və müstəqillik simvolu; 17.Rusiya Federasiyasının Kemerevo vilayətində çay; 18.Türkiyə Cümhuriyyətinin paytaxtı; 20.Dəniz nəqliyyat vasitəsi; 21.Balıqçıların istifadə etdikləri alət.

**Soldan sağa:** 1.Pakistanın paytaxtı; 5.Zirehli texnika əleyhinə qumbaraatan; 7.Pravoslav kilsəsinin yüksək ruhani rütbəsini daşıyan şəxs; 8.Bəstəkar, Azərbaycanın xalq artisti. Məşhur mahnıların müəllifidir, bir sıra filmlərə musiqi bəstələyib; 10.Türk qadın adı; 11.ABŞ-da ştat; 12.Vyetnamın paytaxtı. Adı «çaylar arası şəhər» və ya «çaylar əhatə edilən yer» mənasını verir; 14.Siyənəkkimilər ailəsinə mənsub xırda balıq növü; 19.Kart oyunu; 21.Şəki rayonunda şəhər tipli qəsəbə. Əvvəlki adı Orconikidze olub; 22.Litvanın pul vahidi; 23.Zevsin doqquz qızından ən böyüyü və ən ağıllısı, epik poeziya muzası. Adı «gözəlsəsli» mənasını verir; 24.Klassik Azərbaycan ədəbiyyatında obraz - sevgili, dost, yoldaş mənaları verir; 25.XV əsrdən istifadə olunmağa başlanmış yelkənli gəmi.



*«Balıqçının sevinci». Vaqif Ucatay*

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Kəklik; 2.Natalya *(Məmmədova)*; 3.İclas; 4.Eqoist; 5.Afina; 6.Olivin; 9.Aqil *(Əliyev)*; 13.Duat; 15.Beysbol; 16.Rodari *(Canni)*; 17.Dallas; 18.Tərtər; 20.İlahə; 21.Güzəm. **Soldan sağa:** 1.Kantilena; 5.Alo; 7.Kotilyon; 8.Fici; 10.İflas; 11.Siqnaxi; 12.Saldo; 14.Alibi; 19.Okinava; 21.Göyçə; 22.Aran; 23.Elizabet; 24.İlə; 25.Assembler.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

## idman

# Vergilər Nazirliyinin təmsilçisi ölkə Prezidenti tərəfindən mükafatlandırılıb



Dekabrın 13-də Milli Olimpiya Komitəsində 2018-ci ilin idman yekunlarına həsr olunmuş mərasimdə Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev ölkə idmançılarını ilin uğurlu yekunu ilə bağlı təbrik edib. Tədbirdə Azərbaycanda bədən tərbiyəsinin və idmanın inkişafında xidmətləri olan və 2018-ci ildə yüksək nailiyyətlər qazanan idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim edilib.

Vergilər Nazirliyinin Audit departamentinin Operativ nəzarət şöbəsinin əməkdaşı - kikboksinq üzrə dəfələrlə dünya və Avropa çempionu, əməkdar idman ustası, əməkdar məşqçi Azər Aslanov idmanın inkişafında xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Fəxri Diplomla mükafatlandırılıb.

# Vergi əməkdaşı stolüstü tennis turnirində fərqlənib



Dekabrın 8-də stolüstü tennis idman növünün təbliği, əməkdaşların sağlamlığının möhkəmləndirilməsi və asudə vaxtlarının səmərəli keçirilməsi üçün Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Stolüstü tennis Federasiyasının təşəbbüsü ilə nazirlik, komitə və agentliklər arasında stolüstü tennis turniri başa çatıb. Turnirdə Vergilər Nazirliyi ilə yanaşı, İqtisadiyyat, Fövqəladə Hallar, Ədliyyə, Gənclər və İdman, Mədəniyyət, Təhsil, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin, Dövlət Gömrük, Statistika komitələrinin, eləcə də digər dövlət qurumlarından 93 kişi və 7 qadın əməkdaş iştirak edib. Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin Təşkilat-analitik və preventiv tədbirlər idarəsinin Təşkilat-analitik şöbəsinin baş müvəkkili Elşən Pənahov turnirin üçüncüsü olub. O, belə bir turnirə ilk dəfə qatıldığını bildirib: «Əsasən, boksla məşğul olsam da, uşaqlıq hobbim olan stolüstü tennisdə özümü sınamaq qərarına gəldim. Çoxdan oynamadığım üçün bu dəfə yalnız üçüncü yerlə kifayətlənməli oldum. Gələcək yarışlarda da iştirak etmək niyyətindəyəm».

# Fərman Salmanovun xatirəsinə həsr olunmuş Dünya Kuboku

Rusiyanın Xantı-Mansiysk şəhərində Sibir neft yataqlarının fatehi, görkəmli geoloq, həmyerlimiz Fərman Salmanovun xatirəsinə həsr olunmuş Neft Ölkələrinin XVI Dünya Kuboku keçirilib. Yarışda Azərbaycan millisinin boksçuları da güclərini sınayıblar. Təmsilçilərimizdən Məhəmməd Abdullayev (91kq) turniri qızıl medalla başa vurub. O, finalda fransalı Camili Aboudo-Moindzeni 5:0 hesabı ilə məğlub edib.

Məhəmməd Abdullayevlə yanaşı, Məsud Yusifzadə (52 kq) və Rauf Rəhimov (81 kq) da fəxri kürsüyə yüksəliblər. Onlar yarımfinalda müvafiq olaraq rusiyalı Bator Saqulayevə (1:4) və fransalı Ntambve Qaetana (0:5) uduzublar. Beləliklə, Neft Ölkələrinin Dünya Kubokunda 1 qızıl və 2 bürünc medal qazanan kişilərdən ibarət yığmamız komanda hesabında üçüncü yeri tutub. Ev sahibi Rusiya isə həm kişilərin, həm də qadınların mübarizəsində birinci olub. Onlar 16 ölkənin qatıldığı turnirdə 32 (10-9-13) medala yiyələniblər.

# Cüdoçumuz «World Masters» turnirində qızıl medal qazanıb



Çinin Quançjou şəhərində cüdo üzrə beynəlxalq «World Masters» turniri başa çatıb. Turnirdə 5 idmançı ilə təmsil olunan komandamızın heyətində 2016-cı il Olimpiya Oyunlarının gümüş mükafatçısı Rüstəm Orucov (73 kq) öz statusuna görə dünya çempionatından sonra ikinci reytinq startı hesab edilən bu turnirin qalibi olub. R. Orucov keçirdiyi dörd görüşdən üçünü «qızıl xal» fəndi ilə baş vurub. Cüdoçumuz əvvəlcə iranlı Məhəmməd Məhəmmədi, sonra gürcüstanlı Laşa Şavdatuaşvili, yarımfinalda isə hazırkı dünya çempionu, Koreya nümayəndəsi Çan-Qrin Anla qarşılaşıb və hər üç görüşdə qalib gəlib. Final döyüşünün over-taymında tətbiq etdiyi «vadza-ari» fəndi də Rüstəm Orucova qələbə qazanıb. Komandamız ümumi hesabda 47 ölkəni geridə qoyaraq 6-cı yeri tutub. Turnirdə birinci yeri Yaponiya yığması (7 qızıl, 3 gümüş və 4 bürünc medal), sonrakı yerləri Gürcüstan (2 qızıl, 1 gümüş və 2 bürünc medal) və Rusiya yığması (1 qızıl, 1 gümüş və 4 bürünc medal) tutub.

# Ulduz futbolçu vergidən yayındığını etiraf edib

İspaniyada vergidən yayınmaqla bağlı dörd bənd üzrə dələduzluqda ittiham olunan İtaliyanın «Yuventus» futbol klubunun hücumçusu Kriştianu Ronaldu günahını etiraf edib. 33 yaşlı futbolçu məhkəmə zalında öz günahını etiraf edib və ikiillik şərti cəza ilə razılaşıb. Ulduz futbolçu İspaniyada Madridin «Real» klubunu təmsil edərkən, 2011-ci ildən 2014-cü ilədək olan dövrlərdə dörd ayrı vergi cinayətləri törədib. 14,7 milyon avro məbləğində dələduzluqda ittiham edilən Ronaldu, artıq İspaniya xəzinəsinə 13,4 milyon avro ödəyib.

Məhkəmə futbolçunun iki il müddətinə həbsi barədə qərar çıxarıb. Lakin bu, futbolçunun ilk qanun pozuntusu olduğundan və müddət iki il və bir gündən az olduğundan, İspaniya qanunvericiliyinə uyğun olaraq, real həbs müddəti şərti cəza ilə əvəz edilib. Əgər Ronaldu İspaniyanın vergi qanunvericiliyini yenidən pozarsa, yenidən həbs olunacaq.

## mozaika

### texnologiya

# Yaponiya Çinlə texnoloji rəqabət aparır




Yaponiya hökuməti mobil şəbəkələrin operatorları üçün ultra-sürətli 5G formatlı telekommunikasiya tezliklərinin bölünməsi zamanı ilk növbədə təhlükəsizlik məsələsinin nəzərə alınacağı barədə xəbərdarlıq yayıb. Yaponiya Rabitə Nazirliyi gələn ilin martında 5G şəbəkələr üçün tezliklərin ayrılmasını planlaşdırır. Mütəxəssislərin bildirdiyinə görə, hökumət tərəfindən müəyyən edilən qaydalar şəkilində yayılan bu xəbərdarlıq yapon mobil operatorların öz yeni şəbəkələrində Çinə məxsus telekommunikasiya avadanlığından istifadə olunmasına qarşı yönəlib. Həmin qaydalarda şəbəkənin planlaşdırılması və avadanlığın alınması zamanı təhlükəsizlik və etibarlılıq əsas şərt kimi irəli sürülür. Bu qaydalar Çinin IT nəhəngləri olan «Huawei» və «ZTE» şirkətlərini yapon bazarına buraxmamaq məqsədi daşıyır.

Yaponiyada dörd şirkət - «NTT Docomo», «KDDI», «SoftBank» və «Rakuten» şirkətləri 5G şəbəkəsinin operatoru olmağı planlaşdırır. Onlar avadanlığın alınması zamanı hökumətin təyin etdiyi yeni qaydalara əməl edəcəklərini bildiriblər.

### cəmiyyət

# «Google Pay» ödəniş sistemi öz imkanlarını genişləndirir



«Google Pay» şirkəti «Google Pay» ödəniş servisini yeniləyərək Danimarka, Finlandiya, Norveç, İsveç, Çilidən sonra İtaliya, İspaniya və Yaponiya üçün yeni imkanlar təqdim edir. «Google Pay» ailəsinə qoşulan yeni ölkələrin istifadəçiləri pul göndərmək, ödənişlər haqqında informasiyanı həm əlavə, həm də internet interfeysi vasitəsilə idarə edə biləcəklər.Ödəniş sisteminə İtaliyanın «Banca Iccrea», «UniCredit», İspaniyanın «Bankia», «Banco Mediolanum» və «Banca March» banklarının dəstək verdiyi bildirilir.

Yaponiyada isə «Google Pay»ə dəstək siyahısına əlavə edilə biləcək yalnız bir ödəmə üçün xidmət vardır. Belə ki, sürətli ödəniş sistemi «QUICPay»i qəbul edən dükanlarda müştərilərin «LINE Pay» kartı ilə ödəniş etmələri mümkün olacaq.

### dünya

# Yaponiya ilə ABŞ çiyin-çiyinə

Yaponiyanın quru özünümüdafiə qüvvələrinin bölmələri ABŞ ordusu ilə birlikdə Hokkaydo prefekturasında genişmiqyaslı komanda-qərargah kompüter modelləşməsi təlimlərinə başlayıblar. «Yamasakura» adlanan təlimlərdə təqribən 6600 hərbçi iştirak edir. Təlimlər ABŞ-Yaponiya hərbi qüvvələrinin potensial düşmənin ballistik raketlərin və xüsusi təyinatlı bölmələrin çıxarılması yolu ilə müşayiət olunan hücumuna qarşı müvafiq tədbirlərin gücləndirilməsi məqsədi daşıyır.

Bu il təşkil edilən təlimlərdə, həmçinin kiberhücumlara qarşı tədbirlər də görülür. ABŞ silahlı qüvvələrinin bu təlimlərdə iştirak üçün xüsusi bölmələr yaratdığı bildirilir.

Yaponiya hökuməti cari ayın sonlarında müzakirə ediləcək milli müdafiə proqramının direktivlərində kiberməkanın mühafizəsini əsas prioritetlər sahəsinə daxil etməyi planlaşdırır.

### mədəniyyət

# «Kapelhaus»da «Germanaijan»



Dekabrın 13-də «Kapelhaus» Almaniya-Azərbaycan Mərkəzində «Germanaijan» adlı sərgi açılıb. Cənubi Qafqazda alman yaşayış məntəqələrinin salınmasının 200 illiyi çərçivəsində reallaşan sərgi Almaniyanın ölkəmizdəki səfirliyi, bu ölkənin Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və «Goethe-Zentrum Baku»nun dəstəyi ilə gerçəkləşib.

Sərginin kuratoru Əsli Səmədovanın məlumatına görə, «Germanaijan» iki ölkə adını - Almaniya və Azərbaycanı birləşdirir. Sərgi alman icmasının bugünkü Azərbaycana təsirini qeyd etmək üçün düşünülüb.

Azərbaycanlı şairə Leyli Salayeva və almaniyalı rəssam - illüstrator Kseniya Finkin birgə layihəsi olan sərgi ölkəmizdə ilk alman kolonistlərinin tarixini yenidən araşdırır və hekayə Helena adlı ümumiləşdirilmiş xarakter tərəfindən nəql edilir. Samir Salahovun Hummel ailəsi haqqında parlaq illüstrasiyasında bir alman ailəsinin Azərbaycanda şərabçılığın, arxeologiyanın və muzeyşünaslığın inkişafına verdiyi töhfələrdən danışılır. Sənətkar və dokumentalist-fotoqraf Çinarə Məcidovanın video işində Azərbaycanın şimal bölgələrində və şəhərlərin landşaft memarlığında alman izləri görünür, «Qismət» adlı bədii videoda isə Bakıda alman memarları tərəfindən tikilmiş iki malikanənin taleyindən danışılır. Sərgi alman köçkünlərinin və onlardan sonra gələn nəsillərin həyat hekayələrini araşdıran britaniyalı yazıçı və fotoqraf Tom Marsdenin hazırladığı və hazırda davam edən, sərhədləri aşan layihəsini də təqdim edir. Sərgi 2019-cu ilin fevralın 16-dək ziyarətçilər üçün açıq olacaq.

### maraqlı

# Sürücüsüz işləyən sərnişin avtobusları sınaqdan keçirilir

İndi texnologiyalar o qədər sürətlə inkişaf edir ki, bəzən fantastika öz sərhədlərini itirir, gerçək aləmdə baş verənlər insan fantaziyasını qabaqlayır. Dünən uzaq xəyal kimi görünən arzular bu gün gerçəyə çevrilir, bu gün yeni görünənlər isə az vaxtdan sonra köhnəlib keçmişə qarışır. Dünyanın indi səbirsizliklə izlədiyi texnoloji yeniliklər içində pilotsuz təyyarələr, sürücüsüz avtomobillər, uçan taksilər aktuallıq kəsb edir. Bunlar artıq xəyal deyil, hamı üçün əlçatan olması isə yəqin ki, ən yaxın vaxtların işidir. Gerçəyə çevrilən xəyallardan biri də sürücüsüz işləyən avtomobillərin kütləvi istehsalı ilə bağlıdır. Bu, sadə avtomobil olmayacaq: ictimai nəqliyyat vasitəsi olacaq.

Yaponiyanın Qumma prefekturasında sürücüsüz işləyən sərnişin avtobuslarının real şəraitdə sınaqlarına başlanılıb.

Sürücüsüz işləyən avtobusun hərəkət marşrutu hazırda 1 kilometrdir, avtobuslar saatda 20 kilometr sürətlə hərəkət edir. Sözügedən avtobuslar lazer sensorlar, çoxlu kamera, GPS naviqator və avtomatik olaraq sürət və döngələri müəyyənləşdirən avadanlıqla təchiz edilib. Avtobus işıqforun vəziyyətini də müəyyənləşdirir.

Hazırda Yaponiyanın yollarında sürücüsüz işləyən nəqliyyat vasitələrinin hərəkətini tənzimləyən qanunvericilik yoxdur. Ancaq yəqin ki, yaxın vaxtlarda bu yeniliyin hüquqi bazası da yaradılacaq. Hələlik sınaqlar zamanı avtobus sürücüsü daim öz yerində olur və yoldakı vəziyyəti izləyir, zərurət yarandıqda hər an sükan arxasına keçə bilər.

Sınaqlar 2019-cu ilin martınadək davam edəcək. 2020-ci ilədək Yaponiyada sürücüsüz işləyən nəqliyyat vasitələrinin tətbiqinə başlamaq planlaşdırılır.

### Müdriklər deyib ki...



***«Arzuları öldürməkdən böyük cinayət yoxdur».***

*Xorxe Anhel Livraqa (1930-1991)*